28 oktyabr 2022 №80 (1953)

www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

Qəzet 1991-ci ilin yanvarından çıxır

## Prezident İlham Əliyev BMT Baş katibinin müavinini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 27-də BMT Baş katibinin müavini və BMT-nin Cenevrədəki Bölməsinin baş direktoru Tatyana Valovayanı qəbul edib.

Görüşdə BMT-nin Cenevrədəki Bölməsi rəhbərinin və Heydər Əliyev Fondunun birgə təşəbbüsü ilə Heydər Əliyev Mərkəzində keçirilən Azərbaycan qadınlarına həsr olunmuş fotosərginin əhəmiyyətinə toxunulub.

səh. 2

## Ölkəmizlə Çili arasında mədəni əməkdaşlıq müzakirə olunub

Mədəniyyət naziri Anar Kərimov oktyabrın 27-də Çili Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Rodriqo Arkos ilə görüşüb.

Söhbət zamanı nazir iki ölkə arasında mədəni əlaqələrin inkişafı üçün geniş imkanların olduğunu deyib, bu kontekstdə klassik musiqi sahəsində, habelə kitabxana işi üzrə əməkdaşlığa diqqət çəkib, bu istiqamətdə təcrübə mübadiləsinin faydalı olacağını bildirib.

səh. 2

## Gələn il Albaniyada Azərbaycan mədəniyyəti həftəsi keçiriləcək

Mədəniyyət nazirinin birinci müavini Elnur Əliyevin rəhbərliyi ilə nümayəndə heyəti 24-26 oktyabr tarixində Albaniyanın paytaxtı Tiranaya səfər edib. Səfər Azərbaycanın Albaniyadakı Səfirliyinin dəstəyi ilə həyata keçirilib.

Səfər iki ölkə arasında diplomatik münasibətlərin qurulmasının (23 sentyabr 1993-cü il) 30 illiyi çərçivəsində mədəniyyət sahəsində əlaqələrin genişləndirilməsi, Azərbaycan mədəniyyətinin Albaniyada daha geniş tanıdılması baxımından müzakirələrin aparılması məqsədilə təşkil edilib.

Səfər çərçivəsində Mədəniyyət Nazirliyinin nümayəndə heyəti Albaniyanın mədəniyyət naziri xanım Elva Marqariti, nazir müavini xanım Meri Kumbe, Avropa və xarici işlər nazirinin müavini xanım Artemis Malo və Tirana Bələdiyyəsi başçısının müavini Keti Luarasi ilə rəsmi görüşlər keçirib.

Görüşlər zamanı ölkələrimiz arasında əlaqələrin xüsusi əhəmiyyəti və xalqlarımız arasında dəyərlərin oxşarlığı vurğulanıb, eyni zamanda hər iki tərəf mədəniyyət sahəsində əməkdaşlığın dərinləşdirilməsində maraqlı olduğunu ifadə edib.

Elnur Əliyev Azərbaycan mədəniyyətinin tarixi, ölkəmizin müasir dövrdə mədəniyyət sahəsində əldə etdiyi nailiyyətlər, Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə 2023-cü ilin ölkəmizdə "Heydər Əliyev İli" elan edilməsi və bu kontekstə ulu öndərin Azərbaycan mədəniyyətinin inkişafında xüsusi rolu haqqında söz açıb.

Bununla yanaşı, Ermənistanın otuz ilə yaxın işğal altında saxladığı Azərbaycan torpaqlarının 2020-ci ildə 44 günlük Vətən müharibəsində azad edilməsi, həmin ərazilərdə vandalizmə məruz qalmış tarixi-mədəniyyət abidələrimizin vəziyyəti, aparılan bərpa və yenidənqurma işləri, o cümlədən mədəni irsin bərpası haqqında geniş məlumat verilib.

davamı səh. 2-də

## Bursada II Dədə Qorqud Türk Dünyası Film Festivalı




1-5 noyabr tarixində Türkiyənin Bursa şəhərində 2-ci Dədə Qorqud Türk Dünyası Film Festivalı keçiriləcək.

İlk dəfə ötən il İstanbulda gerçəkləşən festivala bu ildən etibarən "Türk Dünyasının Mədəniyyət Paytaxtı" olan şəhərlərdə keçirilməsi qərara alınıb. 2023-cü ildə bu statusla Dədə Qorqud Türk Dünyası Film Festivalını Şuşa şəhəri qəbul edəcək.

səh. 8

# Natəvanın söz işığında rövnəqlənən sənət

### Xan qızının 190 illiyi münasibətilə muğam və qəzəl axşamı

XIX əsr Azərbaycan klassik ədəbiyyatının görkəmli nümayəndəsi Xurşidbanu Natəvanın (1832-1897) 190 illiyi Prezident İlham Əliyevin sərəncamı ilə ölkəmizdə və xaricdə müxtəlif tədbirlərlə qeyd olunur.




Oktyabrın 27-də bu münasibətlə Beynəlxalq Muğam Mərkəzində (BMM) "Xurşidbanu Natəvan – 190: muğam və qəzəl gecəsi" adlı tədbir keçirildi.

Mədəniyyət Nazirliyinin təşəbbüsü və BMM-in təşkilatçılığı ilə gerçəkləşən gecədə mərkəzin solistləri ilə yanaşı, Muğam televiziya müsabiqəsinin qalibi olan xanəndələr çıxış etdilər. İfaçıları tarzən Rüstəm Müslümovun rəhbərliyi ilə musiqi qrupu müşayiət edirdi.

Tədbirin aparıcısı – Yazıçılar Birliyinin katibi, Əməkdar mədəniyyət işçisi İlqar Fəhmi bildirdi ki, Xurşidbanu Natəvanın həyat və yaradıcılığı ədəbiyyat, incəsənət xadimlərimizi ilhamlandırıb. Hələ sağlığında müasirləri Qasım bəy Zakir, Mirzə Fətəli Axundzadə, Mir Möhsün Nəvvab, Fatma xanım Kəminə, Mirzə Həsən Yüzbaşov, Məmo bəy Məmai, Mirzə Rəhim Fəna və başqaları ona şeirlər həsr edib, qəzəllərinə nəzirələr yazıblar. Bu ithaf şeirləri, nəzirələr müasirlərinin Xan qızının şəxsiyyətinə, fitri istedadına, xeyriyyəçilik missiyasına rəğbətin təzahürüdür. Bu nümunələrdə Natəvanın taleyinin ayrı-ayrı məqamları, şairlik, rəssamlıq keyfiyyətləri, bir sözlə, poetik obrazı çox aydın görünür. İllər sonra da Natəvanın şəxsiyyətinə, keşməkeşli həyatına maraq azalmayıb. Onun haqqında şeirlər, poemalar, pyeslər qələmə alınıb.

Gecədə bu ilin 14-15 iyul tarixlərində Şuşada keçirilən Vaqif Poeziya Günlərinin iştirakçısı olan gənc şairlərin Natəvanın qəzəllərinə yazdıqları nəzirələr Mədəniyyət və İncəsənət Universitetinin tələbələri tərəfindən səsləndirildi.

Yazıçı-publisist, Əməkdar mədəniyyət işçisi, Natəvan haqqında kitabın müəllifi Mustafa Çəmənli şairənin həyatı və ədəbi taleyindən bəhs etdi.

BMM-in solistləri Elgiz Əliyev, Könül Xəlilzadə, Vəfa Orucova, Könül Məmmədli, Nisbət Sədrayeva, gənc xanəndələr Rəvan Qaçayev və Murad Laçının ifasında Xurşidbanu Natəvanın qəzəllərinin muğamlarımızın xallarında təqdimatı yubiley gecəsini sənət rənglərinə boyadı. Bu rənglər içində gənc rəssam Banu Dəvəlinin Xan qızının yubileyinə hədiyyə etdiyi portret tamaşaçıların xüsusilə diqqətini çəkdi.

## "Fikrət Əmirov – 100" diski "Qremmi" mükafatına namizəddir

"Fikrət Əmirov – 100" fortepiano əsərləri antologiyası albomu "Qremmi" mükafatının (Grammy Awards) "Ən yaxşı klassik toplu" ("Best Classical Compendium") kateqoriyasında uzun siyahıya (longlist) daxil olub.

Musiqi albomu Azərbaycanın dünya şöhrətli bəstəkarının 100 illiyi münasibətilə Mədəniyyət Nazirliyi tərəfindən hazırlanıb. Bəstəkarın diskdə yer alan əsərləri tanınmış pianoçu, Xalq artisti, Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının prorektoru, professor Yeganə Axundovanın ifasında yazılıb. Səs rejissoru Nazim Kərimovdur.

"Grammy Awards" Amerika Milli Səsyazma Sənəti və Elmləri Akademiyası (National Academy of Recording Arts and Sciences) tərəfindən təqdim edilən illik musiqi mükafatıdır. Mükafat akademiyanın fəal üzvlərinin səsvermə nəticələrinə əsasən verilir.

Mükafatın 2023-cü il üçün albomlar siyahısı seçiminin nəticələrinə əsasən, "Fikrət Əmirov – 100" diskinin uzun siyahıya salınması Azərbaycan musiqi mədəniyyəti üçün əlamətdar hadisədir. Gələcək nəticədən asılı olmayaraq artıq pianoçu Yeganə Axundova "Qremmi" nominasiyası üçün seçilmiş ifaçı (balloted artist) adını qazanıb.




"Fikrət Əmirov – 100" diski rəqəmsal olaraq "Apple Music", "Spotify", "Yandex Music", "Vk Music", "Boom", "YouTube Music", "Tidal", "Deezer", "Shazam" kimi platformalarda yerləşdirilib.

## Yazıçılar Birliyinin növbəti qurultayı keçirildi

Azərbaycan Yazıçılar Birliyinin (AYB) çoxdan gözlənilən və pandemiya səbəbindən iki il ertələnən XIII qurultayı, nəhayət, oktyabrın 26-da gerçəkləşdi.

Qurultay iştirakçıları əvvəlcə Fəxri xiyabana gələrək ümummilli lider, müasir müstəqil Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla anıb, məzarı önünə əklil qoyublar. Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da məzarı üzərinə güllər düzülüb.

Qurultay iştirakçıları Fəxri xiyabanda görkəmli şair və yazıçılarımızın da məzarlarını ziyarət ediblər.

Sonra Şəhidlər xiyabanına gələn qurultay iştirakçıları ölkəmizin suverenliyi və ərazi bütövlüyü uğrunda canından keçmiş Vətən övladlarının xatirəsini anıblar. "Əbədi məşəl" abidəsinin önünə əklil qoyulub.



Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında işinə başlayan qurultayda Prezident Administrasiyası Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva, Baş nazirin müavini Əli Əhmədov, mədəniyyət naziri Anar Kərimov, Milli Məclisin deputatları, ədəbiyyat, elm və mədəniyyət xadimləri iştirak edirdilər. Qurumun dəvəti ilə Türkiyə, Rusiya, Litva, İsrail, Pakistan, Gürcüstan, Almaniya, İraq, Belarus və İrandan 20-dən çox qonaq, AYB üzvləri arasından isə 330-dək nümayəndə qurultaya qatılmışdı.

Qurultay iştirakçılarının qeydiyyatı bitdikdən sonra AYB-nin bölmələri üzrə hesabat məruzələri kitab halında qonaqlara təqdim edildi.

AYB sədrinin birinci müavini, Xalq yazıçısı Çingiz Abdullayev iştirakçıları salamlayaraq qurultayın heyətini kürsüyə dəvət etdi.

Birliyin sədri, Xalq yazıçısı Anar qurultayı açıq elan etdikdən sonra Dövlət Himni səsləndirildi. Sədr 2014-cü ildə keçirilmiş XII qurultaydan sonra dünyasını dəyişən yazıçı və şairlərin adlarını sadaladı. Ötən dövr ərzində dünyasını dəyişmiş quruma üzv şairlərin, yazıçıların və torpaqlarımızın azadlığı uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi.

Anar müəyyən səbəblərdən gecikən qurultayın məhz indi, qalib ölkənin yazarları kimi keçirmələrindən qürur duyduğunu dedi. O, xalqımıza bu tarixi Zəfəri yaşatdığı üçün bütün yazıçılar adından Prezident İlham Əliyevə və Azərbaycan Ordusuna minnətdarlığını bildirdi.

davamı səh. 3-də

## Türkiyə Cümhuriyyəti 99 yaşında

Oktyabrın 29-u Türkiyə Cümhuriyyətinin quruluşunun 99-cu ildönümüdür. 1923-cü il oktyabrın 29-da artıq dünya səhnəsindən çəkilən qocaman imperatorluqdan, yeddi əsrlik Osmanlıdan sonra yeni dövlətin – Cümhuriyyətin qurulması ümumtürk tarixində yeni səhifənin yazılması idi.

Ondan öncə cəmi 23 aylıq ömrü olmuş Azərbaycan Cümhuriyyətinin dövranın ağır yellərinə tab gətirə bilməməsi, eləcə də Orta Asiyadakı türk xalqlarının milli dövlət qurmaq niyyətlərinin şimal küləyi ilə puça çıxarılmasından sonra Ankarada Atatürkün önderliyi ilə bəyan edilən Türkiyə Cümhuriyyəti, əslində, bütün Türk dünyası üçün fəxarət və nicat ünvanı idi...




Tarixdən bəlli olduğu kimi, I Dünya müharibəsi (1914-1918) gedişində aldığı ağır məğlubiyyətlər nəticəsində Osmanlı imperiyası nəinki geniş coğrafiyasından məhrum olmuş, hətta özünün tarixi ərazisini, indiki Türkiyənin böyük hissəsini də itirmək təhlükəsi ilə üz-üzə qalmışdı.

Belə ağır şəraitdə Mustafa Kamal paşa Osmanlı ordusundakı vətənpərvər zabitlərlə birlikdə Türkiyənin qurtuluşu uğrunda savaşa başladı. 1919-cu il mayın 19-da Qara dəniz sahilindəki Samsun şəhərindən başlanan mücadilə üç il sürdü. 1919-cu ilin dekabrında Ankaraya gələn Mustafa Kamal bu şəhəri Türkiyə dövlətçiliyi uğrunda mübarizənin mərkəzi elan etdi. Çünki İstanbuldakı iqtidar (Sultan Mehmed Vəhidəddin hökuməti) ölkəyə nəzarəti itirmişdi.

davamı səh. 7-də

### Şövkət Ələkbərovanın 100 illiyinə həsr olunmuş tədbir



səh. 2

### "Qardaşlıq salnaməsi"

Filarmoniyada Azərbaycan və Türkiyə sənətçilərinin konserti

səh. 3

### Qutluq Kağan abidə kompleksi ilə bağlı sərgi



səh. 2

# Prezident İlham Əliyev BMT Baş katibinin müavinini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 27-də BMT Baş katibinin müavini və BMT-nin Cenevrədəki Bölməsinin baş direktoru Tatyana Valovayanı qəbul edib.

Görüşdə Azərbaycanın BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinin icrası ilə əlaqədar 2030-cu ilə qədər qarşıya qoyulmuş hədəflərə nail olacağına əminlik ifadə edilib. Ölkəmizin BMT-nin Cenevrə Bölməsi yanındakı strukturları və ixtisaslaşmış təşkilatları ilə əməkdaşlığı qeyd olunub. Bundan əlavə, Azərbaycanın BMT-nin ixtisaslaşmış təşkilatlarına verdiyi könüllü maliyyə töhfələri, həmçinin donor təşəbbüslərini dəstəkləməsi məsələləri vurğulanıb. COVID-19-a qarşı mübarizə tədbirləri çərçivəsində Qoşulmama Hərəkatının sədri kimi Azərbaycanın Dünya Səhiyyə Təşkilatının xətti ilə 80-dən çox ölkəyə göstərdiyi humanitar və maliyyə yardımı nümunəvi hal kimi qiymətləndirilib.

Görüşdə BMT-nin Cenevrədəki Bölməsi rəhbərinin və Heydər Əliyev Fondunun birgə təşəbbüsü ilə Heydər Əliyev Mərkəzində keçirilən Azərbaycan qadınlarına həsr olunmuş fotosərginin əhəmiyyətinə toxunulub. Tatyana Valovaya bildirib ki, sərgi Dayanıqlı İnkişaf Məqsədlərinə töhfə vermiş Azərbaycan qadınlarını təşviq edir və ilk olaraq Bakıda təşkil edilən bu tədbir mütəmadi şəkildə digər ölkələrdə də keçiriləcək.

# Ölkəmizdə ICESCO-nun Regional Ofisi yaradılacaq

Azərbaycanda ICESCO-nun Regional Ofisinin yaradılması haqqında saziş təsdiq edilib.

Prezident İlham Əliyev "Azərbaycan Respublikası Hökuməti ilə İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatı – ICESCO arasında ICESCO-nun Regional Ofisinin yerləşməsi haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanununu imzalayıb.

Milli Məclisdə 11 oktyabr 2022-ci il tarixində qəbul olunan qanun dövlət başçısı tərəfindən imzalanaraq, 26 oktyabrda rəsmi mətbuatda dərc edilib və qüvvəyə minib.

Azərbaycanda ICESCO-nun Regional Ofisinin yaradılması haqqında saziş 2022-ci il mayın 20-də Bakı şəhərində imzalanıb.

# Gələn il Albaniyada Azərbaycan mədəniyyəti həftəsi keçiriləcək

*əvvəli səh. 1-də*

Eyni zamanda qarşı tərəfin təşəbbüsü əsasında Albaniyada Azərbaycan mədəniyyəti həftəsinin keçirilməsinin təfərrüatları müzakirə edilib. Bildirilib ki, iki ölkənin mədəniyyət müəssisələri arasında əməkdaşlıq əlaqələrinin qurulması baxımından bu tədbir xüsusi önəm daşıyacaq. Həftə çərçivəsində ölkəmizin mədəni dəyərlərini özündə əks etdirən konsert və sərginin təşkili, Azərbaycan filmlərinin nümayişi və digər mədəni proqramların təqdim olunması nəzərdə tutulur.



Görüşlərdə Bakıda ikinci dəfə keçiriləcək Nizami Gəncəvi Beynəlxalq Forumu haqqında məlumat verilib və Albaniya tərəfinin tədbirdə iştirakının vacibliyi vurğulanıb.

Səfər müddətində Albaniyanın Milli Tarix Muzeyi, Milli Kitabxanası, Milli Opera Teatrı və Milli Film Mərkəzinin rəhbərləri ilə görüşlər keçirilib və həmin müəssisələrin fəaliyyəti ilə tanışlıq olub. Görüşlərdə Azərbaycan mədəniyyətinin Albaniya ictimaiyyətinə təqdim edilməsi və birbaşa əməkdaşlıq perspektivlərinə dair müzakirələr aparılıb, habelə, bir sıra birgə layihələr müəyyənləşdirilib.

Səfərin son günü Elnur Əliyev "Euronews Albaniya" kanalına geniş müsahibə verib. Müsahibədə Azərbaycan-Albaniya münasibətləri, o cümlədən mədəniyyət sahəsində əlaqələrin gücləndirilməsi, torpaqlarımızın işğaldan azad olunması, həmin ərazilərdə işğal dövründə törədilən vandalizm, hazırda bu torpaqlarda aparılan bərpa və quruculuq işləri, Şuşa şəhərinin ölkəmizin mədəniyyət paytaxtı olması və orada keçirilən müxtəlif mədəni tədbirlərin əhəmiyyəti, habelə 2023-cü ildə Albaniyada keçiriləcək Azərbaycan mədəniyyəti həftəsi haqqında söz açılıb.

# Gürcü teatrı Akademik Musiqili Teatrın qonağı olacaq

Noyabrın 28-29-da Gürcüstanın Kote Marcanişvili adına Tbilisi Akademik Teatrı Azərbaycan Dövlət Akademik Musiqili Teatrının qonağı olacaq. Gürcü teatrının kollektivi rus yazıçısı Lev Tolstoyun "Kreyser sonatası" əsəri əsasında eyniadlı tamaşanı nümayiş etdirəcək.



Teatrdan bildirilib ki, tamaşa Mədəniyyət Nazirliyi və "Teatro.az" sənət portalının "Şuşa İli"nə həsr etdiyi "4.4" Qısa Tamaşalar Festivalı çərçivəsində təqdim olunacaq.

Qeyd edək ki, iki il öncə hazırlanan tamaşaya rejissorlar Levan Tsuladze və Temo Kuprava quruluş veriblər. Səhnə əsərinin xoreoqrafı Tinatin Tsuladze, musiqi tərtibatçısı Zura Qaqloşvili, videomühəndisi David Dvalişvili, səs operatoru Lia Şilakadze, işıq operatorları Tamaz Dudaşvili, Gela Mumladze, rejissor assistenti Nino Jorjolianidir.

# Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin 10 yaşı tamam olub

## Prezident İlham Əliyev Mərkəzin İdarə Heyətinin üzvləri ilə görüşüb

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 26-da Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri İsmail Serageldini və İdarə Heyətinin üzvlərini qəbul edib.

İsmail Serageldin son dövrlərdə Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin nüfuzunun dünyada daha da artdığını vurğulayıb, beynəlxalq təşkilatlar və bir sıra ölkələrin aparıcı institutları ilə birbaşa əlaqələrinin yaradıldığını deyib. O, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin fəaliyyətinə verdiyi dəstəyə görə dövlətimizin başçısına minnətdarlığını bildirib.

İsmail Serageldin Mərkəzin təsis olunmasının 10 illik yubileyi münasibətilə xatirə hədiyyələrini dövlətimizin başçısına təqdim edib.

Prezident İlham Əliyev Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin yubileyi münasibətilə təbriklərini çatdırıb və yubileyin Bakıda qeyd edilməsinin rəmzi xarakter daşıdığını bildirib. Dövlətimizin başçısı Mərkəzin beynəlxalq səviyyədə əməkdaşlığının genişlənməsindən, dünyada rolunun və nüfuzunun artmasından məmnunluğunu ifadə edib.

Görüşdə vurğulanıb ki, Azərbaycan Prezidentinin himayəsi altında Nizami Gəncəvi Beynəlxalq Mərkəzi tərəfindən hər il keçirilən Qlobal Bakı Forumu artıq bütün dünyada aktual məsələlərin müzakirə olunduğu və onların həlli istiqamətində yeni yanaşmaların təklif edildiyi beynəlxalq platforma kimi qəbul olunur.



İsmail Serageldin bildirib ki, Nizami Gəncəvi Beynəlxalq Mərkəzi bu il ərzində Çində və Polşada həmin ölkələrin prezidentlərinin himayəsi altında keçirilən beynəlxalq konfranslarda, BMT Baş Assambleyası çərçivəsində ABŞ-da, Cenevrədə Dünya Səhiyyə Təşkilatı və BMT-nin Cenevrə Ofisi və Berlində Dünya Səhiyyə Təşkilatı ilə birgə təşkil olunan tədbirlərdə, həmçinin Yaponiyada baş tutan Texnologiya Sammitində və Latviyanın paytaxtında – "Riqa Konfransı – 2022"də tərəfdaş kimi çıxış edib.

Xatırladaq ki, Nizami Gəncəvi Beynəlxalq Mərkəzi dahi Azərbaycan şairinin 870 illik yubiley tədbirləri çərçivəsində 30 sentyabr 2012-ci il tarixində Gəncə şəhərində keçirilmiş xüsusi toplantıda təsis edilib.

# Azərbaycan ilə Çili arasında mədəni əməkdaşlıq müzakirə olunub

Mədəniyyət naziri Anar Kərimov oktyabrın 27-də Çili Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Rodriqo Arkos ilə görüşüb.

Qonağı səmimi salamlayan nazir bildirib ki, ölkələrimiz arasında məsafə uzaq olsa da, hər iki xalqı birləşdirən çoxlu mədəni dəyərlər var. Ölkəmizin mədəni zənginlikləri haqqında söz açan Anar Kərimov mədəniyyətin müxtəlif sahələrində fəaliyyət göstərən gənclərə dövlət tərəfindən davamlı dəstək verildiyini diqqətə çatdırıb.

Söhbət zamanı nazir iki ölkə arasında mədəni əlaqələrin inkişafı üçün geniş imkanların olduğunu deyib, bu kontekstdə klassik musiqi sahəsində, habelə kitabxana işi üzrə əməkdaşlığa diqqət çəkib, bu istiqamətdə təcrübə mübadiləsinin faydalı olacağını bildirib. Həmçinin qarşılıqlı sərgilərin, ədəbiyyat axşamlarının keçirilməsinin mədəni əməkdaşlığa töhfə verə biləcəyi vurğulanıb.



Ölkəmizdə ənənəvi olaraq hər il keçirilən Üzeyir Hacıbəyli Beynəlxalq Musiqi Festivalı haqqında diplomata məlumat verən Anar Kərimov festivalın bir sıra ölkələrdən musiqiçi və kollektivləri bir araya gətirdiyini deyib, Çili musiqiçilərini də bu layihədə iştiraka dəvət edib.

Səmimi qəbula görə nazirə təşəkkürünü bildirən səfir Rodriqo Arkos Azərbaycanda insanların qonaqpərvərliyini məmnunluqla qeyd edib, xalqımızın mədəni zövqünün yüksək olduğunu xüsusi vurğulayıb.

Səfir Azərbaycanda mədəniyyət layihələri – sərgilər, yaradıcı insanların görüşlərini keçirmək istədiklərini bildirib, belə layihələrin iki ölkənin ədəbiyyat və mədəniyyətinin qarşılıqlı tanınmasına vəsilə olacağını qeyd edib.

Anar Kərimov öz növbəsində deyib ki, ədəbiyyat üzrə Nobel mükafatı laureatları – böyük Çili şairləri Qabriela Mistral (1889-1957), Pablo Neruda (1904-1973) və başqalarının əsərlərinin müvafiq ali təhsil ocaqlarında müzakirəsini təşkil etmək mümkündür.

Daha sonra görüş qarşılıqlı maraq doğuran digər məsələlərin müzakirəsi ilə davam edib.

# Musiqi Mədəniyyəti Dövlət Muzeyində Şövkət Ələkbərovanın 100 illik yubiley gecəsi

Azərbaycan milli ifaçılıq sənətinin görkəmli nümayəndəsi, tanınmış müğənni və pedaqoq, Xalq artisti Şövkət Ələkbərova milli musiqi tariximizdə şərəfli yer tutmuş sənətkarlardan olub.

Bu sözlər oktyabrın 27-də Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyində Şövkət Ələkbərovanın 100 illiyi münasibətilə keçirilən tədbirdə səslənib.

Tədbir unudulmaz müğənninin ifasında Səid Rüstəmovun "Oxu, gözəl" mahnısının videoyazısının nümayişi ilə başlayıb.

Muzeyin direktoru, Əməkdar mədəniyyət işçisi Alla Bayramova giriş sözü söyləyərək qonaqları salamlayıb.

Muzeyin direktor müavini Təranə Zeynalova Şövkət Ələkbərovanın həyatı və zəngin yaradıcılıq yolu haqqında danışıb. Bildirib ki, nadir məlahətli səsi, dərin musiqi duyumu, yüksək səhnə mədəniyyəti ona xalq arasında muğamların, xalq musiqisinin təkrarsız ifaçısı kimi böyük şöhrət gətirib.

Azərbaycan Milli Konservatoriyası nəzdində Bakı Musiqi Kollecinin direktoru, Əməkdar incəsənət xadimi Nazim Kazımov, Şövkət Ələkbərovanın yetirməsi, Əməkdar artist Nuriyyə Hüseynova, yazıçı-publisist, Əməkdar mədəniyyət işçisi Mustafa Çəmənli, Şövkət Ələkbərovanın gəlini, Tofiq Quliyev adına 12 nömrəli 11 illik Musiqi məktəbinin direktoru Gülnarə Səfərova sənətkar haqqında xatirələrini bölüşüblər.



Çıxışlar muzeyin zəngin kolleksiyaları əsasında hazırlanmış "Şövkət Ələkbərova – 100" slayd-şousu ilə müşayiət olunub.

Tədbirin bədii hissəsində Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyinin Qədim musiqi alətləri ansamblının solisti Nuriyyə Hüseynova, Azərbaycan Milli Konservatoriyasının müəllimi Nüşabə Kərimova, Ş.Ələkbərova adına 20 nömrəli Musiqi məktəbinin müəllim və şagirdlərinin ifalarında konsert proqramı təqdim olunub.

# "Nar bağı" filmi İsveçrədə festivalda



İsveçrənin Bazel şəhərində keçirilən XVI "Cinema Querfeld" festivalında Azərbaycan rejissoru İlqar Nəcəfin "Nar bağı" tammetrajlı bədii filmi təqdim olunub.

Diasporla İş üzrə Dövlət Komitəsindən bildiriblər ki, "Azərbaycanın Dostları" Birliyinin təşkilatçılığı ilə nümayiş etdirilən ekran əsəri isveçrəli izləyicilərdə maraq doğurub. Birlik filmin alman dilində altyazısını xüsusi olaraq bu festival üçün hazırlayıb.

Qeyd edək ki, İsveçrədəki müxtəlif diaspor təşkilatlarının iştirakı ilə gerçəkləşən ənənəvi festivalda filmlər çəkildiyi dildə və almanca altyazı ilə tamaşaçılara təqdim olunur.

"Nar bağı" filminin təqdimatı çərçivəsində İsveçrədə yaşayan rəqqasə Mariya Xan Xoyskaya "Sarı gəlin" Azərbaycan xalq mahnısını ifa edib. Onu isveçrəli musiqiçi Yvette Baum müşayiət edib.

"Azərbaycanın Dostları" Birliyinin sədri Arzu Əliyeva – Bodmer bildirib ki, təşkilat 2014-cü ildən etibarən hər il "Cinema Querfeld" festivalında iştirak edir və Azərbaycan filmlərini isveçrəlilərə təqdim etməkdən qürur duyur.

# Türküstanda Qutluq Kağan abidə kompleksi ilə bağlı sərgi açılıb

"Türk dünyasının ruhani paytaxtı" adını alan Qazaxıstanın Türküstan şəhərində Beynəlxalq Türk Akademiyasının (BTA) Monqolustan Elmlər Akademiyası Arxeologiya İnstitutu ilə birgə apardığı qazıntılar nəticəsində tapılan Qutluq Kağan abidə kompleksi və kitabəsinin beynəlxalq təqdimat mərasimi keçirilib. Bu münasibətlə Türküstanda keçirilən "Abidələri qoruyan millət" mövzulu beynəlxalq konfrans çərçivəsində fotosərgi açılıb.



BTA-nın vitse-prezidenti Füzuli Məcidli Monqolustanın Nomqon düzündə aparılan arxeoloji qazıntı zamanı aşkar edilən Qutluq Kağan abidə kompleksi haqqında məlumat verib.

Konfransın qonaqları – UNESCO-nun Almatı Klaster Ofisi rəhbərinin müavini Maqnus Maqnusson, TÜRKSOY-un Baş katibi Sultan Raev, İslam Tarixi, İncəsənəti və Mədəniyyəti Araşdırmalar Mərkəzinin baş direktoru Mahmud Erol Kılıç və digər iştirakçılar sərgiyə böyük maraq göstərib, qiymətli tapıntı ilə bağlı fikirlərini bölüşüblər.

# Yazıçılar Birliyinin növbəti qurultayı keçirildi

## AYB-nin sədri Anar: "Qurultayı qalib ölkənin yazarları kimi keçirməkdən qürur duyuruq"









əvvəli səh. 1-də

Prezident Administrasiyası Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva Prezident İlham Əliyevin qurultay iştirakçılarına ünvanlanan təbrik məktubunu oxudu.

Məktubda qeyd olunur ki, mədəni həyatımızın mühüm hadisələrindən olan qurultayın parlaq Qarabağ Zəfəri sayəsində tariximizin şanlı səhifələrini yaşadığımız bir dövrə təsadüf etməsi yüksək ideyalı bədii əsərlərin ərsəyə gətirilməsi naminə bir sıra mühüm vəzifələr irəli sürür. "Azərbaycançılıq məfkurəsi işığında cəmiyyətin mənəvi inkişafı məsələlərini hər zaman olduğu kimi, yenə də diqqət mərkəzində saxlayaraq səmərəli müzakirələr aparacağınıza və əhəmiyyətli qərarlar qəbul edəcəyinizə inanıram. Əminəm ki, həmin qərarlar yazıçı və şairlərimizin müasir təfəkkür tərzi ilə seçilən vətənpərvər ruhlu yeni nəsli önündə geniş üfüqlər açacaq, bütün yaradıcı ədəbi qüvvələrə dəstək olacaqdır", – deyə dövlət başçısının təbrik məktubunda bildirilir.

Sonra AMEA-nın prezidenti, AYB-nin üzvü, akademik İsa Həbibbəyli çıxış edərək yazıçıları təbrik etdi. Azərbaycan ədəbiyyatının son dövrdə inkişaf mərhələləri barədə düşüncələrini bölüşən akademik dedi ki, bu qurultay son 30 il ərzində ölkəmizin ərazi bütövlüyü şəraitində keçirilən ilk qurultay kimi ədəbiyyatımızın və müstəqil Azərbaycan dövlətinin tarixində özünəməxsus yer tutacaq.

AYB-nin katibi İlqar Fəhmi qurultay iştirakçıları adından dövlətimizin başçısına ünvanlanmış müraciəti oxudu. Müraciətdə İkinci Qarabağ savaşında qazanılan Zəfərə, həmçinin ədəbiyyat xadimlərinə göstərilən qayğıya görə Azərbaycan Prezidenti İlham Əliyevə təşəkkür ifadə olunub.

Çıxışlardan sonra qurultayın iş gününün birinci hissəsi məruzələrin dinlənilməsi ilə davam etdi.

Qurumun Ağsaqqallar Şurasının sədri, Xalq şairi Nəriman Həsənzadə çıxış edərək qurultayın işinə uğurlar arzuladı.

Mədəniyyət naziri Anar Kərimov qurultay iştirakçılarına təbriklərini çatdırdı. Bildirdi ki, dövlət başçının müraciətində də vurğuladığı kimi, ədəbiyyat, söz sənəti xadimlərimiz tarixən xalqımızın milli özünüdərki, milli dəyərlərinin yaşadılması, azadlıq və mübarizə əzminin aşılanması yolunda böyük xidmətlər göstəriblər. Nazir vurğuladı ki, Azərbaycan yazıçılarının qurultayı çox əlamətdar bir dövrdə keçirilir. "Biz bura qalib xalqın nümayəndələri kimi toplaşmışıq. İnanıram ki, şanlı Zəfərimizdən ilham alan yazarlarımız bu ruhun cəmiyyətə aşılanması üçün diqqətəlayiq əsərlər qələmə alacaqlar".

Sonra qurultayın katibliyi və seçki komissiyası seçilərək reqlament müəyyən olundu.

Milli Məclisin deputatı, Xalq şairi Sabir Rüstəmxanlı, Xalq şairi Ramiz Rövşən, Xalq yazıçısı Kamal Abdulla, millət vəkili Jalə Əliyeva, Türkiyənin sabiq mədəniyyət naziri, yazar Namiq Kamal Zeybək, Pakistan Ədəbiyyat Akademiyasının prezidenti, professor Yusif Huşk, Rusiyanın keçmiş mədəniyyət naziri, ədəbiyyatşünas, tənqidçi Yevgeni Sidorov, Naxçıvan Yazıçılar Birliyinin sədri Asim Yadigar və başqaları çıxış edərək Azərbaycan ədəbiyyatının inkişafından Yazıçılar Birliyinin beynəlxalq əlaqələrindən söz açdılar.

Professor Y.Huşk ölkələrimiz arasındakı mövcud dostluq əlaqələrindən danışdı. O, AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutu ilə Pakistan Ədəbiyyat Akademiyası arasında qarşılıqlı əməkdaşlıq əlaqələrinin konkret layihələr üzrə uğurla davam etdirildiyini söylədi. Azərbaycan və bütün Türk dünyasının ədəbi-mədəni pasportu olan "Kitabi-Dədə Qorqud" eposunun Pakistanda urdu dilində nəşr olunduğunu bildirdi və kitabı Xalq yazıçısı Anara təqdim etdi.

Anar görkəmli ictimai-siyasi xadim, türkoloq, Qazaxıstanın Xalq yazıçısı Oljas Süleymenovun təbrik məktubunu oxudu. Sədr həmçinin Namiq Kamal Zeybəkin AYB-nin fəxri üzvü seçildiyini diqqətə çatdırdı.

Qurultay günün ikinci yarısında məruzələrlə davam etdi. Məruzələrdə qurumun fəaliyyət istiqamətlərindən söz açıldı, həyata keçirilən layihələrin əhəmiyyəti qeyd olundu. Çıxışlarda bir sıra təkliflər də səsləndirildi.

AYB sədrinin müşaviri, yazıçı-dramaturq Elçin Hüseynbəyli qurumun Qarabağ bölməsinin Şuşada yerləşməsinin vacibliyini bildirdi və Cəbrayılda Şərqi Zəngəzur bölməsinin yaradılmasını təklif etdi.

Millət vəkili, akademik Nizami Cəfərov Xalq yazıçısı İsa Hüseynovun (Muğanna) ev-muzeyinə rəsmi statusun verilməsinin vacibliyini qeyd etdi.

"Azərbaycan" jurnalının baş redaktoru İntiqam Qasımzadə mətbuat yayımı ilə bağlı problemlərdən danışdı: "Bakının hər tinində qəzet və jurnal köşkləri var. Amma bu köşklərdə nə desən, satılır... Bir roman, bir hekayə, bir şeir yazıldığı halda oxuculara çatdırılmırsa, onun heç bir əhəmiyyəti yoxdur. Mətbuat yayımı müəlliflə oxucu arasında əlaqə deməkdir. Bu əlaqə olmadan yaradılan ədəbiyyat əhəmiyyətini itirir".

Daha sonra qurultayda açıq səsvermə ilə sədr seçkisi keçirildi. Xalq yazıçısı Anar növbəti dəfə AYB-nin sədri seçildi. Həmçinin birliyin rəhbər strukturu, Ağsaqqallar şurası, İdarə heyəti və Təftiş komissiyası müəyyənləşdi.

Sədr tədbirin belə yüksək səviyyədə keçirilməsinə göstərdiyi dəstəyə görə dövlətimizin başçısına minnətdarlığını bildirdi. Ona yenidən etimad göstərdiklərinə görə qurultay iştirakçılarına təşəkkürünü dilə gətirən Anar "Azərbaycan yazıçısı millətinə, dövlətinə və ədəbiyyata hər zaman sadiqdir və həmişə bu yoldadır", – deyə vurğuladı.

Qeyd edək ki, Azərbaycan Yazıçılar Birliyi 1934-cü ildə yaradılıb. Ötən müddətdə yazıçıların qurultayları müxtəlif dövrlərdə fərqli dövriliklə keçirilib. 1971-1991-ci illər arası (V-IX qurultaylar) 5 ildən bir gerçəkləşib. Müstəqilik dövründə yazıçılar ilk dəfə 1997-ci ildə qurultaya (X qurultay) toplaşıblar. Sonrakı iki qurultay 2004 və 2014-cü illərə təsadüf edib. 1987-ci ildən AYB-yə Xalq yazıçısı Anar rəhbərlik edir.

**Lalə Azəri**

# "Nizami Gəncəvi: şair və müdrik. Dəyərlər və müdrikliyə aparan yol"

Oktyabrın 27-də ADA Universitetində "Nizami Gəncəvi: şair və müdrik. Dəyərlər və müdrikliyə aparan yol" adlı tədbir keçirilib.

ADA Universiteti, İnkişaf və Diplomatiya İnstitutu və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin birgə təşkilatçılığı ilə keçirilən tədbirdə müxtəlif ölkələrdən sabiq dövlət və hökumət başçıları, beynəlxalq təşkilatların rəhbərləri iştirak ediblər.

ADA Universitetinin rektoru Hafiz Paşayev qonaqları salamlayaraq tədbirin əhəmiyyətini qeyd edib.

Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri İsmayıl Serageldin çıxış edərək görkəmli şair və mütəfəkkir Nizami Gəncəvinin irsindən danışıb. Bildirib ki, Nizami Gəncəvi irsi qlobal səviyyədə tanınıb və qəbul edilib. Həmçinin bu irs bu günədək aktualdır. Nizami Gəncəvi öz yaradıcılığında elə bəşəri dəyərlərə toxunub ki, bu gün həmin dəyərlər daha vacib əhəmiyyətə malikdir.

BMT Baş Assambleyasının 75-ci sessiyasının prezidenti olmuş Volkan Bozkır dünyanın üzləşdiyi müxtəlif təhlükələrdən və çətinliklərdən söz açıb, COVID-19 və onun ağır nəticələrini xüsusi vurğulayıb. Rusiya-Ukrayna müharibəsindən söz açan Volkan Bozkır bildirib ki, onun nəticələri təkcə iki ölkəyə deyil, bütünlüklə planetə təsir edir. Bu gün dünyada ərzaq təhlükəsizliyi ciddi problemə çevrilib. Müxtəlif ölkələr ərzaq çatışmazlığı ilə üzləşirlər. Yüz illər əvvəl Nizami Gəncəvi öz yaradıcılığında bu problemlərin bəzilərinə toxunmuşdu. Nizami yaradıcılığının fəlsəfəsi həm də ondan ibarətdir ki, bəşəriyyət həmrəylik sayəsində böhranların öhdəsindən gələ bilər.




Tədbirdə daha sonra ICESCO-nun sabiq prezidenti Əbdüləziz bin Osman əl-Tuveycri, Gürcüstanın sabiq prezidenti Georgi Marqvelaşvili, Bosniya və Herseqovinanın sabiq baş naziri Zlatko Laqumdziya da çıxış edərək bu il 10 illik yubileyini qeyd edən Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin şairin yaradıcılığının dünyada tanıdılmasında böyük əhəmiyyətə malik olduğunu vurğulayıblar. Qeyd edilib ki, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin fəaliyyəti beynəlxalq səviyyədə problem və çağırışlara cavab tapmağa imkan verir.

Tədbirdə beynəlxalq əhəmiyyət daşıyan mövzular müzakirə edilib, tələbələri maraqlandıran suallar cavablandırılıb.

# "Qardaşlıq salnaməsi"

## Filarmoniyada Azərbaycan və Türkiyə sənətçilərinin konserti

Oktyabrın 31-də Azərbaycan Dövlət Akademik Filarmoniyasında Azərbaycanın və Türkiyənin tanınmış sənətçilərinin iştirakı ilə "Şuşa İli" və Türkiyənin Cümhuriyyət Bayramına (29 oktyabr) həsr edilən "Qardaşlıq salnaməsi" adlı konsert təşkil olunacaq.




Konsert Azərbaycan Mədəniyyət Nazirliyi ilə Türkiyə Mədəniyyət və Turizm Nazirliyinin birgə təşkilatçılığı ilə keçiriləcək. Musiqi gecəsini Əməkdar artist, tarzən Əliağa Sədiyevin bədii rəhbərliyi ilə "Xarıbülbül" muğam qrupu idarə edəcək. Azərbaycan və türk müğənnilərinin ifalarından ibarət gecədə rəngarəng mahnılar səsləndiriləcək.

Konsertdə Azərbaycandan Xalq artistləri Nəzakət Teymurova, Teyyub Aslanov, Əməkdar artistlər Firuz Səxavət, Ehtiram Hüseynov, qardaş ölkədən isə TRT-nin solistləri Dünya Tekin, Özlem Üngör, Zafer Albayrak, İlker Gökkaya, Mustafa Gökay və başqaları çıxış edəcəklər.

Xatırladaq ki, proqrama "Xarıbülbül" muğam qrupu ilə yanaşı Türkiyənin sevilən instrumental ifaçıları, saz sənətçiləri Gökhan Karakaya və Mustafa Acarın solo ifaları da daxildir.

# "Muğamın beşiyi Şuşa"

Qara Qarayev adına Mərkəzi İncəsənət Məktəbində "Muğamın beşiyi Şuşa" adlı ədəbi-musiqili gecə keçirilib.

Məktəbin tar ixtisası üzrə müəllimi Nurlan Cəfərli Şuşanın yaradıcı mühiti barədə məlumat verib. O, Şuşa musiqi məktəbi və məclislərindən, xanəndələrin yaradıcılığından, Şuşadan olan adlı-sanlı, nüfuzlu, mədəniyyət tariximizdə iz qoyan Hacıbəyli, Bədəlbəyli, Əmirov, Adıgözəlov soyları, Şuşanın Azərbaycan xalqına bəxş etdiyi böyük sənətkarlar barədə danışıb.

Ədəbi-musiqili gecədə məktəbin şagird və müəllimlərinin ifasında müxtəlif musiqi nömrələri səslənib.



Sonda məktəbin direktoru, Əməkdar artist Əziz Qarayusifli çıxış edərək tədbirin ərsəyə gəlməsində zəhməti olanlara təşəkkürünü bildirib.

# Türk dövlətləri audiovizual media üzrə tənzimləyici orqanlarının toplantısı keçirilib




Oktyabrın 27-də Bakıda Türk Dövlətləri Təşkilatına (TDT) üzv və müşahidəçi ölkələrin audiovizual media üzrə tənzimləyici orqanlarının birinci toplantısı keçirilib.

Tədbirdə çıxış edən Azərbaycan Respublikası Audiovizual Şurasının sədri İsmət Səttarov TDT çətiri altında bütün sahələrdə olduğu kimi, media sahəsində də dərin və geniş inteqrasiya proseslərinin baş verdiyini söyləyib. Şura sədri deyib ki, təşkilata üzv ölkələrin müvafiq strukturları, media qurumları arasında memorandumlar imzalanıb, konfrans və tədbirlər, qarşılıqlı təcrübə mübadiləsi səfərləri təşkil olunub. Azərbaycanla Türkiyə arasında media sahəsində Əməkdaşlıq Memorandumunun imzalanması və Birgə Media Platformasının yaradılmasından sonra ötən il Audiovizual Şura bu ideyanın inkişaf etdirilərək yenidən gündəmə gətirilməsinə nail olub.

TDT-yə üzv və müşahidəçi dövlətlərin Audiovizual media üzrə tənzimləyici orqanları forumunun yaradılmasının vacibliyini vurğulayan İ.Səttarov xatırladıb ki, bu ideya ilk dəfə 2017-ci ildə Van şəhərində keçirilən görüşdə Türkiyənin tənzimləyici qurumu olan RTÜK tərəfindən irəli sürülüb. Lakin regionda baş verən proseslər, habelə 2020-ci ildən dünyanı cənginə alan pandemiya bu məsələnin inkişafı prosesini ləngidib.

Sonra çıxış edən TDT Baş katibinin müavini Ömər Kocaman diqqətə çatdırıb ki, hazırda Türkiyə ilə Azərbaycan arasında media və informasiya sahəsində mübadilələr mövcuddur: "Bir çox sahədə olduğu kimi, media sahəsini də inkişaf etdirmək əhəmiyyətlidir. Təşkilat olaraq ölkələrimizə dair informasiyaları dünyaya düzgün şəkildə çatdırmaq niyyətindəyik. Məqsədimiz dezinformasiyaların qarşısını almaqdır. Hazırkı dönəmdə audiovizual medianın mühüm əhəmiyyəti var. Biz bunun vasitəsilə türk dünyasında məsafələri qısaltmışıq".

Azərbaycan Respublikası Prezidenti Administrasiyası Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsinin Rəqəmsal media ilə iş sektorunun müdiri Elmir Vəlizadə qeyd edib ki, TDT çərçivəsində üzv ölkələr arasında həm ikitərəfli, həm də çoxtərəfli əməkdaşlığın inkişafı həmin tendensiyanın televiziya və radio yayımının tənzimlənməsi sahəsində əməkdaşlığa da təkan verir.

Medianın İnkişafı Agentliyinin icraçı direktoru Əhməd İsmayılov çıxışında bildirib ki, hazırda rəqəmsal media məkanı gündən-günə genişlənməkdə və ölkələrin milli informasiya mühitinə öz təsirini göstərməkdədir. Qloballaşan dünyada yüksək sürətlə baş verən informasiya mübadiləsi prosesi demək olar bütün ölkələri əhatə edir. İcraçı direktor deyib: "Prezident İlham Əliyevin fərmanı ilə yaradılmış Medianın İnkişafı Agentliyi beynəlxalq informasiya mübadiləsinə hesablanmış tədbirlər görür. Bu il Şuşada keçirilən beynəlxalq forumda dünyanın 20-yə yaxın ölkəsindən gəlmiş xarici media nümayəndələri və ekspertlər, beynəlxalq media təşkilatlarının təmsilçiləri ilə müasir media mühitinə dair bütün aktual mövzular ətrafında fikir mübadiləsi aparıldı. Azərbaycan mediasının beynəlxalq informasiya məkanına inteqrasiyası dünyamızın reallıqları fonunda daha böyük əhəmiyyət kəsb edir. Bu gün Azərbaycan və Türkiyənin birgə media platforması mövcuddur".

Vurğulanıb ki, Medianın İnkişafı Agentliyi fəaliyyətinin beynəlxalq informasiya mübadiləsində yeni imkanlar açan müasir informasiya-kommunikasiya texnologiyalarının, innovasiyaların tətbiqinə istiqamətlənmiş layihələrin həyata keçirilməsi üçün də tədbirlər görür.

Daha sonra Türkiyə, Özbəkistan, Macarıstan, Türkmənistanın media nümayəndələri çıxış edərək audiovizual medianın əhəmiyyətindən danışıblar. Media sahəsindəki həmrəyliyin ölkələrimiz arasında düzgün məlumatların, informasiyaların dünyaya çatdırılmasında vacibliyi vurğulanıb.

Sonda üzv və müşahidəçi ölkələrin audiovizual media sahəsi ilə bağlı təqdimatları nümayiş etdirilib.

# MEMİM Siyəzəndə maarifləndirici tədbirlər keçirib

Mədəniyyət Nazirliyinin Mədəniyyət üzrə Elmi-Metodiki və İxtisasartırma Mərkəzi (MEMİM) tərəfindən regionlarda maarifləndirici, intellektual və digər müxtəlif yönümlü layihələrin həyata keçirilməsi davam edir.



MEMİM və Xaçmaz Regional Mədəniyyət İdarəsinin (RMİ) birgə təşkilatçılığı ilə Siyəzən rayonunda "Gəncliyimizi qoruyaq, narkomaniyaya yox deyək!" adlı seminar, rayonda yerləşən "Su ovdanı" tarixi abidəsi ətrafında iməcilik, "Şuşa İli"nə həsr olunmuş "Qarabağ mədəniyyətimizin incisidir" adlı intellektual oyun keçirilib.

Yeniyetmə və gənclər arasında narkomaniyaya qarşı təbliğat və maarifləndirmə məqsədilə təşkil edilən seminarda Xaçmaz RMİ-nin rəisi Vüsal Hüseynov, MEMİM-in direktoru Səadət Xəlefbəyli, Siyəzən Rayon İcra Hakimiyyətinin nümayəndəsi Aqil Abdulov, rayon Polis Şöbəsinin rəisi, polis polkovniki Xəqani Məmmədov, rayon Mərkəzi Xəstəxanasının nevropatoloqu Günel Əliyeva, Gənclər və İdman İdarəsinin rəis müavini Vüsal Alışov, Gənclərin İnkişaf və Karyera Mərkəzi Siyəzən nümayəndəliyinin direktoru Rəqsanə İbrahimli çıxış ediblər.

Çıxışlarda ümumbəşəri bəla olan narkomaniyanın bütövlükdə cəmiyyətin gələcəyi üçün təhdid törətdiyi, onunla mübarizədə birgə səy göstərilməsinin vacibliyi vurğulanıb. Qeyd olunub ki, gənclərin zərərli vərdişlərə qarşı meyilinin azaldılması istiqamətində ən əsas məsələlər sağlam həyat tərzinin təbliğ edilməsi, problemə müasir formada yanaşma tərzi, gənclərin asudə vaxtlarının faydalı keçirilməsi, kütləvi mədəniyyət, təhsil və idman tədbirlərinə cəlb edilməsidir.



Xaçmaz RMİ-nin tabe müəssisələrində çalışan gənclər, Siyəzən rayonunun tam orta təhsil müəssisələrinin yuxarı sinif şagirdləri, rayon Yaradıcılıq Mərkəzinin əməkdaşlarının iştirakı ilə keçirilən interaktiv tədbirdə mövzu ətrafında fikir mübadiləsi aparılıb.

Tədbir çərçivəsində MEMİM-in sifarişi ilə hazırlanan və narkomaniya ilə mübarizəyə həsr olunmuş "Dünya sənin varlığınla gözəldir" və davranış mədəniyyətinə dair "Hər şey səndən başlayır" videoçarxları nümayiş etdirilib. Bədii döymə üzrə sənətkar Zeydulla Ağayevin əl işlərindən, Ayşən Novruzova və İlahə Adıgözəlovanın rəsm əsərlərindən ibarət sərgiyə baxış keçirilib.

Tədbirdən sonra "Su ovdanı" tarixi abidəsi ətrafında könüllülərin iştirakı ilə iməcilik keçirilib. Məqsəd insanlar arasında ekoloji mədəniyyəti, təbiətə diqqət və qayğı hissini, mədəni irsin qorunmasında vətəndaş məsuliyyətini təşviq etməkdir. İməcilikdə rayon sakinləri də fəallıqla iştirak ediblər.

Daha sonra rayonun mədəniyyət müəssisələrində çalışan gənclərin iştirakı ilə "Qarabağ mədəniyyətimizin incisidir" adlı intellektual oyunu təşkil edilib. Fərqlənən iştirakçılara MEMİM tərəfindən sertifikat və xatirə hədiyyələri təqdim olunub.

# "Azadlıq nəğməkarı"nın 130 illiyi münasibətilə

Xaçmaz RMİ Xaçmaz Tarix-Diyarşünaslıq Muzeyində istiqlal şairi Əhməd Cavadın (1892-1937) 130 illiyi münasibətilə "Azadlıq nəğməkarı" adlı tədbir keçirilib. Muzeyin direktoru Pakizə Mehdiyeva şairin Azərbaycan ədəbiyyatı və ictimai fikir tarixində yerindən danışıb. Sonra Ə.Cavadın həyat və yaradıcılığına dair videoçarxlar nümayiş olunub, məktəblilər şeirlər və mahnılar səsləndirib, bədii kompozisiya nümayiş etdirilib.

Quba rayon MKS-nin Mərkəzi Kitabxanası Uşaq şöbəsinin təşkilatçılığı ilə Əhməd Cavadın 130 illiyi ilə əlaqədar rəsm və kitab sərgisi keçirilib.

Sabirabad RMİ-nin tabeliyində fəaliyyət göstərən mədəniyyət müəssisələrində Əhməd Cavadın 130 illiyi münasibətilə silsilə tədbirlər keçirilib. Şairin həyat və sənət yolu barədə məlumat verilib, şeirləri səsləndirilib.

Şəmkir RMİ Şəmkir Tarix-Diyarşünaslıq Muzeyində keçirilən tədbirdə Şəmkir rayon C.Rüstəmov adına tam orta məktəbin şagirdləri Ə.Cavadın şeirlərini söyləyiblər.

# Lənkəran teatrı Biləsuvarda "Haqqın 44 günü"nü göstərib



Lənkəran Dövlət Dram Teatrının truppası "Haqqın 44 günü" tamaşası ilə Biləsuvarda səfərdə olub. Biləsuvar RMİ Biləsuvar rayon Mədəniyyət Mərkəzində təşkil olunan tədbirdə əvvəlcə Lənkəran teatrının direktoru Tofiq Heydərov çıxış edərək kollektivin "Şuşa İli" çərçivəsində bir sıra layihələr üzərində çalışdığını bildirib, təqdim olunan tamaşa haqqında məlumat verib.

Vətən müharibəsində qazanılmış tarixi Zəfərin qəhrəmanlıq dastanı kimi təqdim olunduğu səhnə əsərini rayonun idarə və müəssisələrinin rəhbərləri, ictimaiyyət nümayəndələri və qazilər izləyiblər.

Tamaşanın müəllifi və quruluşçu rejissoru Anar Babalı, quruluşçu rəssamı Adil Əsədli, musiqi tərtibatçısı Fərahim Fərəcovdur. Rolları Gülər Kərimova, Səyyad Əliyev, Emil Rzayev, Şəbnəm Hüseynova, Aysel Cahangirova, Amil İbrahimov, Teymur Hacızadə və Günel Abbasova ifa ediblər.

**Hazırladı: N.Məmmədli**

# Torpağı Vətən edənlər

Sabirabad Regional Mədəniyyət İdarəsi (RMİ) Sabirabad rayon Mədəniyyət Mərkəzinin Muğan Gəncəli kənd Mədəniyyət evində 2016-cı ilin Aprel döyüşlərinin şəhidi, Milli Qəhrəman, polkovnik-leytenant Murad Mirzəyevə həsr olunmuş tədbir keçirilib. Tədbirdə Mədəniyyət Nazirliyinin sifarişi ilə "Salnaməfilm" Studiyasında çəkilən, qəhrəmanın şərəfli ömür yolundan bəhs edən "Komandir" filmi nümayiş olunub.

Şirvan şəhər Heydər Əliyev Mərkəzində Vətən müharibəsinin ikinci ildönümü münasibətilə "Azərbaycan tarixinin Zəfər salnaməsi" adlı tədbir keçirilib. Şirvan şəhər N.Quliyev adına 9 saylı tam orta məktəbin şagirdləri bədii kompozisiya ilə çıxış ediblər.







Saatlı rayon Mədəniyyət Mərkəzində Vətən müharibəsi şəhidi Anar Məmmədova həsr olunmuş "Mən komandirəmsə..." sənədli filminin təqdimatı keçirilib. Film Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə yardımı və "Əhalinin maarifləndirilməsi mütəxəssislərin dəstəyi" İctimai Birliyinin köməkliyi ilə ərsəyə gəlib.

***

Şəki RMİ Oğuz rayon Mərkəzi Kitabxanasının əməkdaşları şəhər Həbib Babayev adına 1 saylı tam orta məktəbin X sinfində işğaldan azad olunan Zəngilan rayonu ilə əlaqədar informasiya saatı keçiriblər.

***

Lənkəran RMİ-nin rəisi Şahin Şahbazov Lənkəranın Gərmətük qəsəbəsində dünyaya göz açmış Vətən müharibəsi şəhidi Emil Şıxəlizadənin ailəsinə baş çəkib.

Lənkəranın Boladı kəndində Vətən müharibəsinin şəhid məyoru Aqşin İbadovun yaşadığı ata ocağında xatirəsinin əbədiləşdirilməsi məqsədilə yaradılan muzeyin açılışı olub. Mərasimdə Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşov, rayon ictimaiyyətinin nümayəndələri, şəhid ailələri, qazi və veteranlar iştirak ediblər.

Ürgə kəndində isə Vətən müharibəsi şəhidləri Araz İbadlı və Zabil İbadzadənin xatirəsinə inşa edilən bulaq kompleksinin açılışı olub.

***

Ağdaş RMİ Ucar rayon MKS-nin əməkdaşları Vətən müharibəsi şəhidi Hikmət İbrahimovun anım günü ilə əlaqədar ailəsini və məzarını ziyarət ediblər.

Göyçay rayonunun Çaxırlı kəndində Vətən müharibəsi şəhidi Sənan Məmmədovun xatirəsinə inşa olunan bulaq kompleksi açılıb. Sənan Məmmədov 2020-ci ilin yanvarında həqiqi hərbi xidmətə çağırılıb. Vətən müharibəsi zamanı oktyabrın 21-də Xocavənd istiqamətində şəhid olub. Ölümündən sonra "Vətən uğrunda" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilib.

***

Ağcabədi RMİ Ağdam rayon Mədəniyyət Mərkəzinin tabeliyində fəaliyyət göstərən Qaradağlı kənd Mədəniyyət evində Vətən müharibəsi şəhidi Vüqar Vəliyevin xatirəsi anılıb. Bildirilib ki, Ağdam rayonunun Rzalar kəndində anadan olan Vüqar Azərbaycan





Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasını bitirib. Hərbi xidməti başa vurduqdan sonra 2019-cu ildə müəllim işləməyə başlayıb. Vətən müharibəsi başlayanda məktəbi döyüş meydanına dəyişib. Strateji yüksəkliklərin azad olunmasında rəşadətlə döyüşüb. Suqovuşan istiqamətində şəhidlik zirvəsinə yüksəlib.

***

Ağstafa RMİ Ağstafa rayon Mərkəzi Kitabxanasının Uşaq şöbəsində "Qubadlıya dönən yol" adlı tədbir keçirilib. Şagirdlərin ifasında Vətənimizə, Zəfərimizə həsr olunmuş şeirlər səsləndirilib.

Qazax Dövlət Rəsm Qalereyasında dərnək üzvü Ruhin Xasməmmədovun "Qarabağ Azərbaycandır!" adlı fərdi rəsm sərgisi keçirilib. Sərgidə rəssamın 30-a yaxın əsəri nümayiş olunub.

Tovuz rayon Heydər Əliyev Mərkəzi və rayon MKS-nin Mərkəzi Kitabxanasının birgə təşkilatçılığı ilə Zəfər Gününə həsr olunmuş "Tarix yazan qəhrəmanlar" mövzusunda tədbir təşkil olunub.

***

Bərdə RMİ Bərdə şəhər 1 nömrəli Uşaq incəsənət məktəbinin kollektivi tərəfindən Vətən müharibəsi şəhidi giziri Xudayar Yusifzadənin anım günü ilə əlaqədar Bərdə Şəhidlər xiyabanı ziyarət edilib. Şəhidlərin məzarları önünə gül dəstələri düzülüb, şagirdlər X.Yusifzadəyə həsr olunmuş kompozisiya səsləndiriblər.

Bərdə rayon Güloğlular kəndində Vətən müharibəsi şəhidi Baloğlan Nağıyevin xatirəsinə inşa olunan bulağın açılışı olub. Mərasimdə şəhidin ailə üzvləri, yaxınları, Bərdə RMİ-nin rəhbərliyi, ictimaiyyət nümayəndələri və kənd sakinləri iştirak ediblər.

***

Kürdəmir RMİ Beyləqan rayon MKS-nin Mil qəsəbə kitabxanası, Diyarşünaslıq evi və İlham Quliyev adına Mil qəsəbə tam orta məktəbinin birgə təşkilatçılığı ilə Qubadlının işğaldan azad olunmasının ildönümünə həsr olunmuş "Qayıdışın mübarək, Qubadlı!" adlı tədbir keçirilib.

***

Sumqayıt RMİ Abşeron rayon Qobu qəsəbə Sənətkarlıq evində Vətən müharibəsi şəhidi Gülverdi Qasımova həsr olunmuş tədbir keçirilib. Əvvəlcə şəhidin həyat yolunu əks etdirən sərgiyə baxış olub. İdarənin rəisi Rəşad Əliyev bildirib ki, Ali Baş Komandan İlham Əliyevin uğurlu daxili və xarici siyasəti, müzəffər Ordumuzun qəhrəmanlığı sayəsində 44 günlük Vətən müharibəsi tarixə qızıl hərflərlə yazılıb. Sonra tədbir bədii hissə ilə davam edib.

RMİ-nin Qubadlı rayon nümayəndəliyi tərəfindən Vətən müharibəsi şəhidi İlkin İsgəndərovun anım mərasimi təşkil edilib. Qubadlı Rayon İcra Hakimiyyətinin başçısı Malik İsaqov, idarə və təşkilat rəhbərləri, şəhid ailələri, rayon ictimaiyyətinin iştirak etdiyi tədbirdə rayon və Mahmudlu kənd mədəniyyət evlərinin hazırladığı kompozisiya nümayiş olunub, şeirlər səsləndirilib.

***

Gəncə RMİ Gəncə şəhər Heydər Əliyev Mərkəzi şəhər MKS-nin 16 nömrəli kitabxana filialı ilə birlikdə "Qələbəmizin carçıları" mövzusunda tədbir keçirib. Göygöl rayon 8 Mart ümumi orta məktəbinin şagirdləri bədii kompozisiya ilə çıxış ediblər.

# "Muzeyi peşəkardan öyrənək"

## Növbəti təlim-seminar İsmayıllıda təşkil olunub

Mədəniyyət Nazirliyinin "Muzeyi peşəkardan öyrənək" layihəsi üzrə növbəti təlim-seminar İsmayıllı Heydər Əliyev Mərkəzində keçirilib. Seminarda İsmayıllı rayon RMİ-nin əhatə etdiyi İsmayıllı, Şamaxı, Ağsu, Qəbələ və Qobustan rayonları üzrə tarix-diyarşünaslıq muzeyləri, ev-muzeyləri, rəsm qalereyaları və Heydər Əliyev mərkəzlərinin direktorları, baş fond mühafizləri və elmi işçiləri iştirak ediblər.

Ümumilikdə 14 mədəniyyət müəssisəsindən 40 əməkdaşın qatıldığı təlim-seminarı Azərbaycan İstiqlal Muzeyinin direktoru Sədi Mirseyibli və elmi fond işləri üzrə direktor müavini Aida Axundova aparıblar. Seminarda muzey sahəsində müasir çağırışlar, fond və mühafizə işi və s. mövzulardan bəhs edilib.

Yerlərdə muzeylərin fəaliyyətini aktivləşdirmək, müasir çağırışlara cavab verən muzey mühitini formalaşdırmaq məqsədi daşıyan layihənin digər regionlar üzrə fəaliyyət göstərən muzey müəssisələrinin əməkdaşları üçün təşkili də nəzərdə tutulur.



# Bərdədə "Günahsız qurbanlar" nümayiş olunub



Bərdə Regional Mədəniyyət İdarəsi (RMİ) və Bərdə "ASAN Xidmət" mərkəzinin birgə təşkilatçılığı ilə rayon Mədəniyyət Mərkəzi nəzdindəki Xalq teatrının hazırladığı "Günahsız qurbanlar" tamaşasının nümayişi olub. Tamaşa 2020-ci ilin Vətən müharibəsində Ermənistanın dövlət terroru – Bərdə şəhərini raket atəşinə tutulmasından bəhs edir.

Xalq teatrının rejissoru Mehman Quliyevin quruluş verdiyi tamaşanın nümayişindən sonra Bərdə RMİ-nin rəisi Vəsilə Möhsümova və Bərdə "ASAN Xidmət" mərkəzinin direktoru İlahə Quliyeva çıxış ediblər. Vətənpərvərlik ruhunda hazırlanan belə tamaşaların vacibliyi vurğulanıb. Yaradıcı heyətə fəxri fərman və hədiyyələr təqdim edilib.

Qeyd edək ki, 2020-ci il oktyabrın 28-də Ermənistan silahlı qüvvələri tərəfindən Bərdə şəhərinə beynəlxalq hüquqla qadağan olunmuş kaset bombalardan istifadə olunmaqla zərbələr endirilib. Nəticədə aralarında uşaq və qadınlar da olmaqla 20 sakin həlak olub, 82 nəfər yaralanıb.

# "Qızılaxtaran" vandallar yaxalanıb



Daşkəsən rayonunun Aran Zəylik kəndi ərazisində yerləşən qədim alban məbədində bir neçə şəxsin vandalizm əməlinin qarşısı alınıb.

Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti əməkdaşlarının yerli hüquq-mühafizə orqanlarına müraciəti əsasında tarixi tikilidə qızıl axtaran və bu məqsədlə ərazidə qanunsuz qazıntı aparan şəxslər yaxalanıb.

DİN Mətbuat xidmətinin Gəncə şəhərindəki regional qrupundan bildirilib ki, polis əməkdaşları dərhal həmin əraziyə gələrək müvafiq tədbirlər həyata keçiriblər.

Məlum olub ki, Sumqayıt şəhər sakinləri Namiq Əliyev, Əliağa Əhmədov, Şirvan şəhər sakini Eynur Səmədov, Bakı şəhər sakini Ülfət Niftalıyev və Quba rayon sakini Taleh Şirinov qabaqcadan planlaşdıraraq sözügedən əraziyə gəlib və müxtəlif elektrik avadanlıqları və alətlərin köməyi ilə məbədin ərazisində qızıl axtarışlarına başlayıblar.

Həmin şəxslər maddi sübutlarla birlikdə saxlanılaraq istintaqa təhvil verilib, faktla bağlı rayon Polis Şöbəsində araşdırmalar davam etdirilir.

# Nizami Gəncəvi Vəqfinin bir yaşı tamam oldu

## Rəfi Qurbanov: “Dahi şairin zəngin irsi ilə yanaşı, Azərbaycanın mədəniyyətini, ədəbiyyatını, Nizami yurdu Gəncəni də beynəlxalq aləmdə təbliğ etmək əsas məramımızdır”

Vəqf mədəniyyəti könüllü bir hərəkat olmaqla yanaşı, vicdan və mərhəmətə, xeyriyyəyə əsaslanır, fikirdə və işdə birlik prinsipi ilə formalaşır. Bu fondlar insanın insana fayda verməsinə dəstək üçün yaradılıb. Yaş, cins, dil, mədəniyyət fərqli ola bilər, nəticə olaraq hamımız insanıq. Bu prizmadan baxdıqda vəqflərin fəaliyyəti təkcə sosial yönlü deyil, həm də davamlılığın ifadəsidir.

Müasir dövrdə də vəqflər mövcuddur və onların fəaliyyət istiqamətləri genişdir. Qardaş Türkiyədə hazırda vəqf sistemi daha geniş spektri əhatə edir, çoxəsrlik ənənələr yaşadılır. Bəlkə də kimlərsə bu fəaliyyəti sıradan bir iş hesab edə bilər, amma əcdadlarımızdan bizə əmanət qalan xeyriyyə işlərinə verdiyimiz dəstəyin mənəvi dəyəri çox yüksəkdir. Azərbaycancanda da tarixən müxtəlif vəqflər olub, onların fəaliyyəti həmin dövrə dair sənədlərdə əksini tapıb.

2021-ci ildə ölkəmizdə Nizami Gəncəvi Vəqfi fəaliyyətə başlayıb. Qurum dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin (1141-1209) anadan olmasının 880 illik yubileyi çərçivəsində Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Bakıda keçirilən Nizami Gəncəvi Beynəlxalq Forumunun sonunda qəbul edilmiş Birgə Kommunikedən irəli gələrək yaradılıb.

Bəs, yeni yaradılan vəqfin əsas məqsəd və məramı nədən ibarətdir? Meyarları və hədəfləri nələrdir? Bu suallarla Nizami Gəncəvi Vəqfinin direktoru Rəfi Qurbanova müraciət etdik.



– Məlum olduğu kimi, Orta əsrlər mədəniyyətinin böyük simalarından olan dahi Azərbaycan şairi Nizami Gəncəvinin yaradıcılığı onun öz zamanından üzübəri həmişə diqqət mərkəzində olub, araşdırılıb, əsərlərinin üzü köçürülüb. Mütəfəkkir şairin zəngin irsi bu gün də nəinki respublikamızda, bir sıra ölkələrdə də araşdırılır, müxtəlif dillərə tərcümə edilərək çap olunur. Son illər Azərbaycan alimlərinin Nizami yaradıcılığını yeni aspektdə tədqiq etmələri, əsərlərinin ana dilimizdə yeni redaktədə nəşri və s. ölkə ictimaiyyəti tərəfindən yüksək qiymətləndirilir. Bu məqsədlə atılan addımlardan biri də 2021-ci ildə Nizami Gəncəvinin anadan olmasının 880 illik yubileyi münasibətilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən elan edilmiş “Nizami İli”ndə keçirilən I Nizami Gəncəvi Beynəlxalq Forumu çərçivəsində Nizami Gəncəvi Vəqfinin təsis edilməsi oldu. Yeni qurduğumuz vəqf vaxtilə mövcud olmuş Şeyx Nizami Vəqfinin varisidir.

*– Tarixi qaynaqlarda qeyd etdiyiniz Şeyx Nizami Vəqfi haqqında hansı məlumatlara rast gəlinir?*

– Şeyx Nizami Vəqfi ilə bağlı ilk məlumat 1595-ci ildə tərtib edilmiş “Gəncə-Qarabağ vilayətinin ərazi icmal dəftəri”ndə yer alıb. Həmin icmal dəftərinin 277-ci səhifəsində Nizami vəqfindən bəhs edilir. Bu dəftər şair əbədiyyətə qovuşandan sonra xatirəsinin əziz tutulduğunu təsdiq edən sənədlərdən biridir. Dəftərdə ayrıca vəqfin gəlir qaynaqları da göstərilib. Bundan əlavə, Azərbaycan ictimaiyyətinə vəqf haqqında ilk məlumatlar akademiklər Həmid Araslı və Ziya Bünyadov tərəfindən 80-ci illərdə “Ədəbiyyat və incəsənət” qəzetində dərc edilmiş məqalələr vasitəsilə verilib. Bu məqalələr bizim vəqfin rəsmi saytında da yerləşdirilib. Sovet dövründə yazılan bu məqalələr Nizami vəqfinə aid sənədin xüsusi bir araşdırma obyekti olduğunu göstərir.

*– Şeyx Nizami Vəqfinin kim tərəfindən təsis edildiyi məlumdurmu?*

– Təəssüf ki, vəqfin neçənci əsrdə və kim tərəfindən təsis edildiyi məlum deyil. Çünki yaradılması haqqında, yəni təsis sənədi ilə bağlı məlumatların olmaması vəqfin idarəetmə forması, vəqf edilən malların növü və ölçüləri və s. kimi ortaya çıxan suallara cavab almaq qeyri-mümkündür. Lakin əldə olunan məlumatlardan aydın olur ki, Gəncə şəhərində İmamzadənin (Göyimam) də vəqfləri var idi. İmamzadə Gəncə qalasının içərisində, Nizami məqbərəsi isə kənarda yerləşib. Nizami zaviyyəsinin (hücrə, guşə – red.) 12 ədəd vəqf edilmiş mülkü olub. Bu, həmin dövrlərdə Gəncə-Qarabağ vilayətində ən böyük vəqf hesab edilirdi. Vəqfin illik gəlirləri mədrəsələr, türbələr və yaxud digər binaların tikilməsində sərf olunurdu.

*– Nizami Gəncəvi Vəqfinin məqsəd və məramı nədən ibarətdir?*

– Vəqfin məqsədi Nizami Gəncəvinin irsinə sahib çıxmaqla Orta əsrlərdə Gəncə-Qarabağ bölgəsində fəaliyyət göstərmiş Şeyx Nizami Vəqfinin mənəvi varisi kimi bu irsi təbliğ etmək, eyni zamanda ümumbəşəri dəyərləri, sülh və ədaləti tərənnüm edən dahi mütəfəkkirin ideyalarını yaşadaraq Azərbaycan mədəniyyətinin beynəlxalq arenada təbliğinə töhfə verməkdir. Eyni zamanda Azərbaycanın qədim tarixini, zəngin mədəniyyətini, ədəbiyyatını, incəsənətini və adət-ənənələrini, xüsusilə Azərbaycanın qədim şəhəri Gəncəni beynəlxalq auditoriyada geniş təbliğ etmək də əsas məramımızdır. Biz həm də Nizami Gəncəvinin ədəbi irsini tədqiq edən nüfuzlu beynəlxalq və yerli nizamişünas alimlərin bilik mübadiləsini təşviq etmək, eləcə də bu sahədə yeni tədqiqatların aparılmasına töhfə vermək, bu irsi tədqiq edən alimlər üçün Azərbaycanı beynəlxalq əməkdaşlıq platforması kontekstində bir mərkəz halına gətirməkdir.

Vəqfimiz eyni zamanda müxtəlif regional və beynəlxalq səviyyəli, dövlət və qeyri-hökumət təşkilatları ilə əməkdaşlıq çərçivəsində elmi və mədəni layihələrə dəstək vermək, nəticələri nəşrlər və digər vasitələrlə dünya ictimaiyyəti ilə bölüşərək fərqli mədəniyyətlər arasında körpü yaratmaq niyyətini də qarşıya məqsəd qoyub. Bu məqsədlə vəqfin Beynəlxalq Ekspertlər Şəbəkəsi də yaradılıb.

*– Bu şəbəkə hansı prinsiplər əsasında fəaliyyət göstərəcək?*

– Beynəlxalq Ekspertlər Şəbəkəsi vəqfin məqsəd və vəzifələrinə uyğun olaraq müvafiq sahələr üzrə ixtisaslaşmış nüfuzlu yerli və xarici ölkələrdən elm adamlarını, ekspertləri və mütəxəssisləri könüllü əsaslarla birləşdirən əməkdaşlıq platformasıdır. Burada bizim təşəbbüsümüz və dəstəyimizlə həyata keçirilən layihələr üzrə müvafiq mövzu seçiminin, konsepsiya və proqramların formalaşdırılmasında məsləhət-

Nizami Ganjavi Foundation

ləşmələrin aparılması, müəyyən sahələr üzrə ixtisaslaşmış yerli və beynəlxalq təşkilat, dövlət qurumları, elmi dairələr və fərdi ekspertlərlə əməkdaşlıq əlaqələrinin qurulmasına dəstəyin göstərilməsi nəzərdə tutulur.

*– Qurumun “Gənclər konsepsiya”sı nəyə xidmət edir?*

– Nizami Gəncəvi irsini rəhbər tutaraq universal dəyərləri təşviq etmək və gənclər üçün əlverişli sosial mühit yaratmaq məqsədilə “Kəşf et, ünsiyyət qur, inkişaf et!” şüarı ilə vəqfin “Gənclər konsepsiyası” da hazırlanıb. Vəqfin gənclərlə bağlı fəaliyyətində onların dünyagörüşünün formalaşmasına, sosial məsuliyyət hissinin və komanda daxili əməkdaşlıq vərdişlərinin aşılanmasına xüsusi önəm verilir.

*– Hansısa qurumla əməkdaşlıq əlaqələri yarada bilmisinizmi?*

– Bəli, bu gün vəqfimiz yerli və beynəlxalq tərəfdaşlarla əməkdaşlıq edir. Tərəfdaşlar sırasında Azərbaycan Mədəniyyət Nazirliyi, Türkiyənin Yunus Əmrə İnstitutu, yerli və xarici universitetlər və s. var. Biz bu əməkdaşlıqdan məmnunuq.

**Lalə Azəri**

# Əbədi hürriyyətin şairi

## Milli Azərbaycan Ədəbiyyatı Muzeyində elmi sessiya

Böyük şair və dramaturq Hüseyn Cavidin (1882-1941) anadan olmasının 140 illiyi ilə bağlı oktyabrın 24-də Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyində “Əbədi hürriyyətin şairi” mövzusunda elmi sessiya keçirilib.

Tədbiri muzeyin baş direktoru, akademik Rafael Hüseynov açaraq mütəfəkkir ədibin keşməkeşli ömür yolundan, zəngin yaradıcılığından bəhs edib. Bildirib ki, Azərbaycan ədəbiyyatı tarixinə parlaq səhifələr yazmış Cavid bütün ədəbi fəaliyyəti boyu həqiqəti, insanpərvərliyi və gözəlliyi tərənnüm edib. Yalnız Azərbaycan deyil, dünya ədəbiyyatının ən müstəsna simaları sırasında yer alan Hüseyn Cavid öz aqibətini də, gələcək taleyini də öncədən görürdü və bunu misralarında da əks etdirib.

“O yalnız olanları yazmırdı, olacaqları da əvvəlcədən qələmə alırdı” deyən R.Hüseynov qeyd edib ki, özünü “səma şairi” adlandıran Hüseyn Cavid göydə bərq vuran ulduzlar kimi hər zaman Azərbaycan ədəbiyyatı içərisində parlayır. Faciələr yazan, özü faciələrlə üzləşmiş şair 1937-ci ildə, yaradıcılığının ən parlaq çağında, Azərbaycan ədəbiyyatına böyük bəhrələr verdiyi bir zamanda repressiyaya uğrayıb. 1956-cı ilin bəraətlər dalğasından sonra bir çox şairlər kimi, Hüseyn Cavidin də üzərindən “xalq düşməni” dalğası götürüldüyünü, onun xalqa qayıdışı başladığını deyən akademik vurğulayıb ki, görkəmli ədibə münasibətdə bu,




tam bir qayıdış olmayıb və yalnız 100 yaşının tamamında, 1982-ci ildə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin mühüm xidmətləri sayəsində Cavidin yubileyi qeyd edilib. Məhz Heydər Əliyevin qətiyyəti sayəsində Cavidin nəşini Azərbaycana gətirmək mümkün olub, dahi şair doğma Naxçıvanda torpağa tapşırılıb. Rafael Hüseynov ədibin məqbərəsinin də illər sonra yenə ulu öndərin təşəbbüsü ilə ucaldıldığını, Cavidin pərən-pərən düşmüş, hərəsi bir məzarda torpağa tapşırılmış ailə üzvlərinin də həmin məqbərədə qovuşduğunu bildirib.

Böyük ədibin dünya ədəbiyyatı və mədəniyyəti tarixində yeri barədə də söz açan R.Hüseynov bildirib ki, Cavid dünya ədəbiyyatının ən məşhur simaları ilə müqayisə edilərək Azərbaycanın və Şərqin Şekspiri adlandırılıb. Bunun səbəbi Cavidin poeziyasındakı dərinlik, müdriklik, fəlsəfədir.

Akademik Cavidin yaradıcılığı kontekstində onun “İblis” dramının məziyyətlərindən bəhs edib. Diqqətə çatdırıb ki, Cavidin Sibirdə dustaq olarkən yazdığı son dramının adı “Allah” idi. Bundan əvvəl isə o, “Peyğəmbər” və “İblis” pyeslərini yazmışdı. Yəni bu üç əsərlə mütəfəkkir şair insanın bütün varlığı və ruhu ilə ömrü boyu cazibəsində, təsirində olduğu üçbucaq haqqında fəlsəfi-poetik epopeya yaradıb. Cavidin bütün yaradıcılığı xeyirlə-şərin, işıqla-zülmətin, istiqlalla-istibdadın mübarizəsinin ifadəsidir. O, həmçinin yaradıcılığında gəncliyi mütərəqqi baxışdan tərənnüm edirdi. “Azər” poemasında isə bu barədə çox qiymətli fikirləri yer alıb.

“Hüseyn Cavidin 140 yaşı onun böyük ömrünün yalnız bir parçasıdır” deyən R.Hüseynov bütövlükdə Azərbaycan xalqına qayıtmış Cavidin yolunun əsrlərcə davam edəcəyinə əminliyini ifadə edib.

Tədbirdə muzeyin elmi katibi, filologiya üzrə fəlsəfə doktoru Nuranə Əsədullayeva “Ömür kitabı – Azər”, əməkdaşlardan filologiya üzrə fəlsəfə doktoru Göyərçin Mustafayeva “Milləti, vətəni ucaldan şairlər”, Ülviyyə Həsənova “Hüseyn Cavid yadigarları” mövzularında məruzə ilə çıxış ediblər.

# Mətbuat və mədəniyyətimizin fədakar salnaməçisi

## Qulam Məmmədlinin yubileyi vaxtilə qurulmasında iştirak etdiyi muzeydə qeyd olundu



Bu il fədakar tədqiqatçı, mətnşünas, Əməkdar jurnalist, Əməkdar mədəniyyət işçisi, “Qızıl qələm” mükafatçısı Qulam Məmmədlinin (1897-1994) anadan olmasının 125 illiyidir.

Oktyabrın 26-da Cəlil Məmmədquluzadənin Bakıdakı ev-muzeyində görkəmli salnaməçinin yubileyi qeyd olundu.

Tədbirdə elm və mədəniyyət xadimləri, Bakı şəhəri 150 nömrəli tam orta məktəbin bir qrup şagirdi iştirak edirdi. İştirakçılar Vətən uğrunda canından keçən şəhidlərimizin əziz xatirəsini bir dəqiqəlik sükutla yad etdilər.

Muzeyin direktor əvəzi Yeganə Məmmədova çıxış edərək Qulam Məmmədlinin Azərbaycan salnaməçilik məktəbinin bünövrəsini qoymasından danışdı. Diqqətə çatdırdı ki, yorulmaz tədqiqatçı böyük yazıçı-dramaturq Cəlil Məmmədquluzadənin 100 illik yubileyi münasibətilə “Molla Nəsrəddin” (salnamə)” kitabını çap etdirir. Bununla da ölkəmizdə bu ənənənin əsasını qoyur. O daha sonra “Hüseyn Ərəblinski”, “Cahangir Zeynalov”, “Abbas Mirzə Şərifzadə”, “Üzeyir Hacıbəyov”, “Cavid – ömrü boyu”, “Nəriman Nərimanov” və başqa kitab-salnamələri çap etdirir: “Görkəmli tədqiqatçı dəfələrlə bu evdə olub. Eksponatların toplanmasında və yerləşdirilməsində məsləhətlərini əsirgəməyib. İndi də elə bil bu evdə onun ayaq səsləri eşidilir, nəfəsi duyulur”.

Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin rəisi İbrahim Əliyev görkəmli tədqiqatçının Azərbaycan elminə, mədəniyyət və ədəbiyyatına töhfələrindən danışdı. Bildirdi ki, onun adı çəkiləndə Azərbaycan ədəbiyyat və mətbuatı ilə bağlı salnamələr yaradan fədakar tədqiqatçı yada düşür. Elmi dərəcə və elmi adı olmayan bu araşdırmaçı yaradıcılıq fəaliyyəti dövründə təkbaşına bir elmi tədqiqat institutunun işini görüb. O, ömrünün böyük hissəsini milli ədəbi irsin, mətbuat tariximizin öyrənilməsinə həsr edib.

Azərbaycan Aşıqlar Birliyinin sədri, Əməkdar elm xadimi, professor Məhərrəm Qasımlı salnaməçi ilə bağlı xatirələrdən söz açdı. Qeyd etdi ki, görkəmli rus yazıçısı Maksim Qorki 1934-cü ildə Bakıda olarkən Qulam müəllim də onunla görüşür. Bu görüş rusiyalı ədibin yaddaşında dərin iz buraxır. M.Qorki Q.Məmmədlini “xalq sərvətinin bilicisi, Azərbaycan mətbuatının yanar ürəyi” adlandırır.

Diqqətə çatdırıldı ki, Q.Məmmədli mətbu fəaliyyətlə yanaşı, ədəbi mühitdə az tanınan klassik yazıçı və şairlərimizin yaradıcılığı ilə bağlı dərin araşdırmalar aparıb. Mirzə Məhəmməd Naxçıvani ilə dostluq əlaqələri qurub. Onun kitabxanasından istifadə edərək Mirzə Əli Möcüz və Heyran xanım haqqında kitablar hazırlayaraq Təbrizdə çap etdirib.

Tədbirdə daha sonra Əməkdar müəllim M.Babakişiyeva, Bakı Dövlət Universitetinin professoru M.Osmanoğlu və başqaları çıxış edərək Q.Məmmədlinin elm və mədəniyyətimiz qarşısında xidmətlərindən danışdılar.

Çıxışlardan sonra muzeyin direktor əvəzi Y.Məmmədova tədbir iştirakçılarına təşəkkürünü bildirdi.

**Savalan Fərəcov**

# ADMİU Özbəkistanın Milli Rəssamlıq və Dizayn İnstitutu ilə əməkdaşlıq edəcək

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin (ADMİU) rektoru, professor Ceyran Mahmudovanın rəhbərliyi ilə nümayəndə heyəti Özbəkistanda səfərdə olub.

ADMİU-dan bildirilib ki, beynəlxalq əlaqələr və tərbiyə işləri üzrə prorektor Gülşən Əliyeva-Kəngərli, Təsviri sənət kafedrasının müdiri Rəşad Cabarov, Təsviri sənət tarixi və nəzəriyyəsi kafedrasının müdiri Aslan Xəlilov, dosent Elfira Məlikova-Qurbanovanın da yer aldığı heyət Özbəkistan Bədii Akademiyası Kəmaləddin Behzad adına Milli Rəssamlıq və Dizayn İnstitutunda “Dünya alimlərinin nəzərində Kəmaləddin Behzad yaradıcılığı” mövzusunda beynəlxalq elmi konfransda iştirak edib.




Tədbir çərçivəsində iki təhsil ocağı arasında qarşılıqlı münasibətlərə dair müqavilə imzalanıb. Müqavilədə müəllim və tələbələrin təcrübə mübadiləsinin aparılması da əksini tapıb.

Professor Ceyran Mahmudovaya Kəmaləddin Behzad adına Milli Rəssamlıq və Dizayn İnstitutunun “Fəxri professor”u diplomu təqdim edilib. Təltifə görə təşəkkürünü bildirən C.Mahmudova da ADMİU ilə institut arasında əlaqələrin inkişafı istiqamətində əlindən gələni edəcəyini deyib.

Səfər zamanı ADMİU heyəti Özbəkistan Bədii Akademiyasının prezidenti, Xalq rəssamı Akmal Nuriddinovla görüşüb. Görüşdə həyata keçiriləcək layihələr və yaradıcılıq planları müzakirə olunub. Xalq rəssamı Akmal Nuriddinov müəllifi olduğu kitabları Ceyran Mahmudovaya hədiyyə edib.

Səfər çərçivəsində ADMİU-nun nümayəndə heyəti Daşkənddə yerləşən Heydər Əliyev adına Mədəniyyət Mərkəzində də olub. C.Mahmudova mərkəzə ADMİU tələbələrinin əl işi olan “Xarıbülbül” rəsmini hədiyyə edib.

# Nazim Hikmətin 120 illiyinə həsr olunmuş elmi konfrans

Oktyabrın 26-da AMEA-nın akademik Z.Bünyadov adına Şərqşünaslıq İnstitutunda görkəmli türk şairi Nazim Hikmətin (1902-1963) 120 illiyinə həsr olunmuş elmi konfrans keçirilib. Konfransa Azərbaycan, Türkiyə, Misir və İraqdan alimlər qatılıblar.

Şərqşünaslıq İnstitutunun baş direktoru, akademik Gövhər Baxşəliyeva tədbiri açaraq XX əsr dünya ədəbiyyatının böyük simalarından Nazim Hikmətin təkcə türk xalqının deyil, bütün Şərq xalqlarının poeziyasına təsir göstərdiyini deyib, şairin həyat və yaradıcılıq yolunun Azərbaycanla bağlı məqamlarına diqqət yetirib.

Şərqşünaslıq İnstitutunun Türk filologiyası şöbəsinin müdiri, dosent Səriyyə Gündoğdu “Çağdaş türk ədəbiyyatı və Nazim Hikmət” mövzusunda məruzə edib. Məruzəçi şairin əsərlərini fars dilinə tərcümələrindən, onunla bağlı elmi tədqiqatlardan söz açıb, həmçinin ərəb şairlərinin Nazim Hikmətdən bəhrələnməsindən bəhs edib.

AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun dosenti Əflatun Baxşəliyev “Nazim Hikmət və Səməd Vurğun”, Şərqşünaslıq İnstitutunun əməkdaşları dosent Barat Osmanova “Nazim Hikmət və onun haqqında ilk tədqiqatlar”, Ülkər Səmədova “Dünya ədəbiyyatında Nazim Hikmət izləri”, Xanım Abdullayeva “Nazim Hikmət şeirlərində milli şüur” mövzusunda məruzə ediblər.

№80 (1953)
28 oktyabr 2022
www.medeniyyet.az

# Qədim İrəvandan düşən milli sənət işığı...

## 140 yaşlı teatrın parlaq dünəninə bir nəzər



Teatr işi ilə məşğul olmaq, onu yaratmaq və yaşatmaq çox çətin məsələdir. Böyük fədakarlıq tələb edən və məhrumiyyətlərlə dolu teatr sənəti xalqımızın həyatının bütün həlledici məqamlarında istinad yeri ola bilib. Bu heç də gəlişigözəl söz, yaxud bir toplumun mədəni səviyyəsini təyin üçün seçilmiş ifadələr deyil.

Gələn il peşəkar Azərbaycan teatrı 150 illiyini qeyd edəcək. Bu tarixin zənginləşməsində, sözsüz ki, xalqımızın mədəniyyətinin özünəməxsus inkişaf yoluna bələdçilik edən qədim İrəvanın sənət mühitinin də öz yeri var. Bu il İrəvanda peşəkar Azərbaycan teatrının yaranmasının 140 illik yubileyidir. Prezident İlham Əliyev 14 iyul 2022-ci il tarixində bu əlamətdar yubileylə bağlı sərəncam imzalayıb.

Bu materialı hazırlayarkən çoxsaylı mənbələrlə tanış oldum. Belə qənaətə gəldim ki, doğrudan da, İrəvanda teatr, səhnə sənətinə maraq bu peşəkar teatrın tarixindən (1882) daha əvvələ gedib çıxır.

Onu da qeyd edim ki, Qulam Məmmədlinin "Azərbaycan teatr salnaməsi" (1975) və İsrafil Məmmədovun "İrəvan dəftəri III. Teatr tariximizdən səhifələr" (2008) kitablarında bu barədə kifayət qədər məlumat var və yazıdakı istinadların əksəriyyəti bu mənbələrdir.

Məlum olduğu kimi, daha çox XIX yüzilliyin ikinci yarısı İrəvan quberniyasında yaşayan azərbaycanlılar üçün, həqiqətən də, təəssüf və qürur hissi doğuran bir dövr olub. Məkan dəyişməz qalsa da, zaman dəyişib, həyatın məcrası, yaşam fəlsəfəsi, ictimai fikrin inkişaf meyli yenilənib. Bir yanda etnik təmizləmə, ruslaşdırma, erməniləşdirmə, deportasiya, repressiya siyasəti qəddarlıqla davam etdirilib, o biri yanda da azərbaycanlılarda dözmək, müqavimət göstərmək, mənalı yaşamaq və yaratmaq əzmi güclənib.

Beləcə, milli mədəniyyətin aşkar, daha canlı, daim düşünməyə səsləyən təcəssümü olan səhnə sənətinin intibahına meyil gözəçarpacaq dərəcədə güclənib, daha geniş dairələri əhatə edib. İrəvanın ziyalıları, məmurlar, tələbə və şagirdlər, müxtəlif peşə sahibləri olan şəhər sakinləri, teatr həvəskarları, fədailər bu işə can yandırmağa başlayıblar. İstək və diləklərini soydaşlarına çatdırmaq, yoxsul tələbə və şagirdlərə yardım etmək məqsədilə pyeslər yazıb, tamaşalar göstəriblər.

Konkret olaraq tarixi faktlara əsasən 1882-ci il aprelin 2-də İrəvandakı qızlar məktəbinin salonunda, şəhərin kasıb azərbaycanlı tələbələrinə kömək məqsədilə V.Mədətovun (Nəzmi) "Tamahkarlıq düşmən qazanar" pyesi oynanılıb. Bu üçpərdəli komediyanı azərbaycanlı teatr həvəskarları tamaşaya qoyublar. Məşədi Fərəc rolunda pyesin müəllifi, Məhəmmədqulu rolunda Mirzə Xəlil Hacıyev, Fətəli Mirzə rolunda Rüstəmxan Abbasquluxanov, Həsən obrazında Məhəmməd adlı bir nəfər çıxış edib.

Tamaşa haqqında həmin dövrdə mətbuatda dərc olunan resenziyada deyilir: "İrəvanın kasıb müsəlman tələbələrinə kömək məqsədilə Azərbaycan türklərinin dilində ikinci dəfə oynanıldı". Həvəskar artistlərin səhnə davranışına qiymət verərkən müəllif onları iki qrupa bölür: birinci dəfə səhnəyə çıxanlar, əvvəlki tamaşada çıxış edənlər: "Birinci dəfə səhnəyə çıxmasına baxmayaraq Mirzə Xəlil Hacıyev öz təbii oyunu ilə hamını heyran etmişdi".

Bu məlumatdan da İrəvanda azərbaycanlıların teatrla sistemli məşğul olması aydın olur.

### Cəfası səfasından çox olsa da...

Sistemli şəkildə teatr işi ilə məşğul olan həmvətənlərimiz barədə növbəti tarix 1886-cı illə bağlıdır. Həmin ildə İrəvan gimnaziyasında "Müsyö Jordan və dərviş Məstəli şah" komediyası ikinci dəfə göstərilir. Firudin bəy Köçərlinin təşəbbüsü və təşkilatçılığı ilə reallaşan nümayişdə həvəskar artistlər çıxış edirlər. 1890-cı il aprelin 4-də isə İrəvan Müəllimlər Seminariyasının salonunda növbəti nümayiş olur.

"Yeni əsr" qəzetinin 1896-cı ilə aid 19 dekabr nömrəsindən: "Dekabrın 8-ni teatr tamaşası baxımından İrəvan türklərinin həyatında dönüş nöqtəsi saymaq olar. Dünən türk teatr həvəskarlarının kiçik bir dəstəsi öz tamaşasını göstərdi. Komediya, afişada elan edildiyi kimi, kapitan Mirzə Fətəli Axundovun "Müsyö Jordan" adlı əsəri idi".

Tamaşa nümayişlərinin peşəkarlıq səviyyəsini və mövzu dairəsini daha da genişləndirmək məqsədilə kiçik həcmli səhnə əsərlərinin çapına da diqqət yetirilirdi. Buna misal olaraq Rəhim Xəlilovun şəbih tamaşalarına dair "İrəvan quberniyası şiə müsəlmanlarının arasında məhərrəmlik təziyədarlığı" (1899) adlı kitabını göstərə bilərik.

1903-cü il İrəvanda teatrın pərvazlanması baxımından yaddaqalan il olur. Mədəniyyətin, maarifin inkişafı yolunda əvəzsiz xidməti olan Pənah xan Makinskinin buradakı evi, sözün əsl mənasında, teatr səhnəsinə dönür. M.F.Axundzadənin "Müsyö Jordan və dərviş Məstəli şah", N.Qoqolun "Müfəttiş" və s. əsərlər yaz və yay aylarında bu evdə tamaşaya qoyulur. Eyni əsərlər həmin ilin yazında "Canpoladov" və "Cəmiyyət" klublarında da göstərilir. Rolları yerli teatr həvəskarları Yunis Nuri, Cəfər Əhmədov, Qənnadı Cabbar, Mirzə Əli, Kərim Əhmədov və başqaları ifa edirlər.

1905-ci il – Azərbaycan türklərinin erməni terroruna məruz qaldığı o ağır dönəmdə də teatr təəssübkeşləri məqsədlərindən dönmürlər və avqustun 25-də qırğınlar zamanı zərər çəkmiş həmyerlilərinə kömək məqsədilə bir tamaşa göstərirlər. 15 gün sonra eyni məqsədlə daha bir tamaşa nümayiş olunur və əldə edilən vəsait şəhərin yoxsul sakinlərinə verilir.




1906-cı ilin əvvəlində milli ədavət yenidən güclənir. Mayın 27-də, iyunun 8-9-da yenə kütləvi qırğınlar baş verir. Vəziyyət dəyişməsə də, azərbaycanlı teatr həvəskarları fəaliyyətlərini davam etdirir və yenə Pənah xan Makinskinin evində tamaşa göstərirlər. Əldə etdikləri 426 manatı isə dağıdılmış qiraətxananın bərpasına verirlər. Sentyabrın 22-də teatr-ev yenə tamaşaçılarla dolur. Bu dəfə Mirzə Fətəlinin "Müsyö Jordan və dərviş Məstəli şah"ı göstərilir. Bir neçə gündən sonra isə daha iki tamaşa nümayiş olunur. Həmin ildə dramaturqun "Hacı Qara" komediyası, S.Qənizadənin "Dursunəli və Ballıbadı" və "Xor-xor" vodevilləri də göstərilir.

1907-ci ildə İrəvan sakinləri ilk dəfə Fərrux və Ələkbər adlı şəxslərin gətirdikləri sirk tamaşasına baxırlar. Tamaşa alqışlarla qarşılanır.

Artıq müəyyən teatr ənənəsinin formalaşdığı rus-tatar (rus-Azərbaycan) məktəbinin həyətində teatr həvəskarları növbəti tamaşalarını göstərirlər. Avqustun 24-də olan nümayişdən 277 manat pul əldə edilir və həmin məktəbdə təhsil alan üç kasıb şagirdə verilir. Beləcə, 1882-ci ildən başlayan xeyriyyə məqsədli tamaşa nümayişləri ənənəsini əsas qayəyə çevirən irəvanlı teatr həvəskarları vaxt keçdikcə repertuarlarını da zənginləşdirirlər.

1908-ci il yanvarın 19-da Şəhər klubunda N.Kamalın "Vətən" tamaşası səhnəyə çıxarılır. N.Vəzirovun hələ 1875-ci ildə İrəvanda qələmə aldığı "Ev tərbiyəsinin bir şəkli", sonralar yazdığı "Yağışdan çıxdıq, yağmura düşdük" əsərləri isə iyunun 17-də yenə də rus-tatar məktəbində təhsil alan yoxsul uşaqlara kömək məqsədilə oynanılır.

1909-cu ilin teatr mövsümü irəvanlı teatrsevərlər üçün daha maraqlı olub. Belə ki, həmin il dövrün məşhur artistləri Hüseyn Ərəblinski, Sidqi Ruhulla, Cəlil Bağdadbəyov, Yusif Ağayev və başqaları şəhərə gəlir və müxtəlif tarixlərdə bir neçə tamaşa ilə çıxış edirlər. Təbii ki, dövrün mətbu orqanlarında geniş əks-səda doğuran bu qastrol teatr təmsilçilərinin irəvanlı həmkarları ilə yaradıcılıq mübadiləsi baxımından da əhəmiyyətli idi.

1910-cu ili İrəvan teatrının həyatında dönüş ili də hesab etmək olar. Qısa zamanda Bakıdan gədən artistlərlə birgə M.F.Axundzadənin "Molla İbrahimxəlil kimyagər" pyesi tamaşaya qoyulur və səhnə əsəri maraqla qarşılanır. Həmin il biri-birinin ardınca "Bəxtsiz cavan", "İranda qarət", "Mən ölmüşəm", "Qız istəmək" əsərləri də səhnələşdirilir.

N.Vəzirovun "Müsibəti-Fəxrəddin" faciəsi 1911-ci il mayın 19-da tamaşaya qoyulur. Sidqi Ruhulla tamaşanı yerli teatr həvəskarlarının iştirakı ilə ərsəyə gətirir. Yerli teatr həvəskarları iyunun 3-də C.Bağdadbəyovun iştirakı ilə yenə də N.Vəzirovun "Yağışdan çıxdıq, yağmura düşdük" komediyasını oynayırlar. 1912-ci ilin teatr təqvimi də çox rəngarəng olub. Aprelin 26-da yerli teatr həvəskarları Ə.Haqverdiyevin "Dağılan tifaq" faciəsini tamaşaya qoyurlar. Mayın 8-də isə "İrəvan gənc azərbaycanlı teatr həvəskarlarının dram dərnəyi" təşkil olunur.

1913-cü ilin fevral və mart aylarında "Batumi İslam dram cəmiyyəti"nin artistləri İrəvana gələrək silsilə tamaşalar göstərirlər. Bu səfər də yerli azərbaycanlılarda teatr zövqünün formalaşması baxımından əhəmiyyətli idi.

Eyni zamanda indiki Ermənistan ərazisində yaşayan azərbaycanlıların teatra, səhnə sənətinə marağının xeyli artdığının göstəricisi sayıla bilər. Bu marağın daha bir sübutu martın 25-də Əli Məhzun Rəhimovun və Əsgər Axundovun "İrəvan İslam dram şirkəti"ni yaratmağa dair icazə almaları idi. Aprelin 29-da şirkətin artistləri tərəfindən Ə.Haqverdiyevin "Kimdir müqəssir?" və "Ac həriflər" əsərlərinin tamaşaları göstərilir.

Ümumilikdə istər ayrı-ayrı illərə, istərsə də sonrakı tarixlərə nəzər saldıqda irəvanlı milli teatr təəssübkeşlərimizin bütün çətinliklərə rəğmən səhnə işi ilə mütəşəkkil məşğul olduqlarını görürük. Lakin bütün bunlar faydasız hesab olunur və teatra amansız münasibət axır ki, öz sözünü deyir. 1918-20-ci illərdə İrəvan Azərbaycan teatrı təkcə yaratmaq imkanından deyil, yaşamaq hüququndan da məhrum edilir. Təbii ki, burada söhbət hər hansı göstərişlə teatr fəaliyyətinə qadağadan yox, ümumiyyətlə, oradakı azərbaycanlılara qarşı törədilən amansız qarət və silsilə qətllərdən gedir. Belə bir vəziyyətdə Azərbaycan teatrı, azərbaycanlı teatr həvəskarının İrəvanda qalması ancaq faciə ilə nəticələnə bilərdi. Xilas olmağın tək çarəsi qaçıb qurtarmaq idi! Məhz bu baxımdan da teatr tarixinin bu dövrü faciəvi qaçqınlıq anı kimi yadda qalıb...

### Mübarizə, didərginlik, səhnəsizlik...

Gəlin, teatrın sonrakı tarixi ilə bağlı qısa xatırlatmalara nəzər salaq. Teatra 1928-ci ildə Ermənistan SSR hökuməti tərəfindən dövlət statusu verilir. 1935-ci ildə sənət ocağına görkəmli dramaturq Cəfər Cabbarlının adı verilir. 1949-cu ildə növbəti qərəzli qərarla teatrın dövlət statusu yenidən ləğv edilir və fəaliyyətini xalq teatrı kimi davam etdirməli olur. 1951-ci ildə qapadılan başıbəlalı teatrın fədakar kollektivi inadla fəaliyyətini davam etdirir və 1967-ci ildə yenidən teatrın dövlət statusu bərpa edilir. 1978-ci ildə Bakıda teatrın dövlət statusu almasının 50 illik yubiley tədbirləri keçirilir və sənət ocağı Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin fəxri fərmanı ilə təltif olunur.

1988-ci ildən başlanan və bütün Qərbi Azərbaycanı başına alan erməni millətçilərinin azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti teatrın da həyatını alt-üst edir. Qocaman səhnə ocağı 1989-cu ildə Bakıya pənah gətirir.

1989-1994-cü illərdə Akademik Milli Dram Teatrının nəzdində "Teatr-studiya" statusunda fəaliyyət göstərir.

1994-cü il 31 avqust tarixində ulu öndər Heydər Əliyevin böyük qayğısı ilə İrəvan teatrı üçüncü dəfə (bu dəfə Azərbaycanda) dövlət statusu alır. Kollektiv paytaxtda H.Sarabski adına Mədəniyyət evində yerləşdirilir və yeni quruculuq fəaliyyətinə start verilir.

Prezident İlham Əliyevin 2006-cı il 30 avqust tarixli sərəncamı ilə C.Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Dram Teatrının 125 illik yubileyi qeyd edilir.

2008-ci ildən M.Rəsulzadə adına Mədəniyyət Sarayı teatrın balansına verilir. Hazırda teatrın binası əsaslı təmir-bərpa prosesindədir və yəqin ki, ilin sonunadək 140 illik yubiley gecəsini təntənəli şəkildə məhz öz binasında qeyd edəcək.

### Təki sənət yaşasın...

Teatr sadiq tamaşaçıları və fədakar sənət xadimləri ilə Qərbi Azərbaycanı özündə ehtiva edən mədəni məkan olaraq həm irəvançılıq üçün mübarizə aparır, həm də müasir tamaşaçı üçün maraqlı səhnə nümunələrinə yol açır. Teatrın cari repertuarında C.Cabbarlının "Vəfalı Səriyyə", X.Hüseyninin "Min möhtəşəm günəş", N.Hikmətin "Qəribə adam", V.Siqarevin "Şeytan ailəsi", D.Çizməli və P.Çələbioğlunun "Cümhuriyyətin ilk sədası", N.Dumbadzenin "Didro", Hidayətin "Burdan min atlı keçdi", "İrəvanda xal qalmadı", "Ömürdən uzun gecə", Elçinin "Akvariuma xüsusi sifariş", M.Bayciyevin "Ömür qatarı", Q.Narqabilin "Beş dul qadın və rəis", İftixarın "Qurtuluş dastanı", "Nurlu ömrün anları", "Soyqırımı tarixinin dastanı", "Qanlı qızıl toy", "Haqq mənəm", S.Şahtaxtının "Ölüm həsrəti", İ.Məmmədlinin "Oğru və doğru", S.Elsevərin "Ürəyində arzu tut" tamaşaları var.

İrəvan teatrının tamaşaçılarını qarşıda da maraqlı səhnə işləri gözləyir. Hazırda teatrda M.F.Axundzadənin "Molla İbrahimxəlil kimyagər" komediyası (quruluşçu rejissor – Əməkdar artist Sərvər Əliyev), V,Şekspirin "Kral Lir" faciəsi (quruluşçu rejissor – Elvin Mirzəyev) və A.Turanın "Atam, anam, mən, qardaşım və Stalin" pyesinin (quruluşçu rejissor – Əməkdar incəsənət xadimi Bəhram Osmanov) məşqləri gedir.

Deməli, əsl səhnə, sənət eşqi ilə çıxılan uzun və məşəqqətli yolun sonu mütləq aydınlıq olur. Nə bilmək olar, bəlkə o işıq yola çıxanları həm də ilk mənzillərinə qaytaracaq!...

**Həmidə Nizamiqızı**

# "Bu dünyanın Azərbaycan Zirvəsi var..."

## Tofiq Mütəllibovun poeziyası Vətənə və onun övladlarına məhəbbətdən yoğurulub

Bütün yaradıcı insanlar özlərindən sonra onu yaşadacaq bir iz qoymağa çalışır. Tanınmış şair, Əməkdar incəsənət xadimi Tofiq Mütəllibov da onu əbədi yaşadacaq bədii nümunələr qələmə alıb. Nəğməkar şairin 30-a yaxın kitabı işıq üzü görüb, 300-dən çox şeirinə mahnı bəstələnib.



Tofiq Mütəllim oğlu Mütəllibov 13 aprel 1929-cu ildə Naxçıvan şəhərində ziyalı ailədə anadan olub. Şəhərdə orta məktəbdə oxuduğu dövrdən bədii yaradıcılığa maraq göstərib, şeirlər qələmə alıb. "Zəfər" adlı ilk şeiri 1946-cı ildə "Azərbaycan pioneri" qəzetində dərc olunub. Orta məktəbi müvəffəqiyyətlə başa vurduqdan sonra Azərbaycan Dövlət Universitetində ali təhsil alır.

Əmək fəaliyyətinə "Pioner" jurnalında başlayan Tofiq Mütəllibov müxbir, məsul katib işləyir. O daha sonra Televiziya və Radio Verilişləri Komitəsində redaktor, böyük redaktor, "Azərbaycan pioneri" qəzetində şöbə müdiri vəzifələrində çalışır. Bir müddət sonra "Azərbaycan gəncləri" qəzetində fəaliyyətini davam etdirir.

Artıq istedadlı şair kimi diqqətçəkən T.Mütəllibov "Görüş", "Şeirlər", "Bəxtiyar balalar", "Gözəllikdən doymur ürək", "Sənin xətrinə", "Danışan çiçəklər", "Mənim əzizlərim", "Görüş yerimiz" və başqa kitabları ilə oxucuların görüşünə gəlir.

Araşdırmalarda qeyd edilir ki, 1949-cu ildə bəstəkar Qəmbər Hüseynli T.Mütəllibova bir musiqi dinlətdirir. Ondan bu musiqiyə söz yazmasını xahiş edir. Şair həmin musiqiyə şeir yazır. Bu, nəinki Azərbaycanda, 100-dək ölkədə məşhur olan "Cücələrim" əsəri idi. Mahnının ilk ifaçısı, deyilənə görə, mərhum Əməkdar incəsənət xadimi Arif Qazıyev olub. 1959-cu ildə Moskvada keçirilən Azərbaycan incəsənəti dekadasında "Cücələrim"i aktrisa və rəssam-florist Suğra Bağırzadə oxuyur. Mahnı alqışlarla qarşılanır və tezliklə dillər əzbərinə çevrilir. "Dünyanın ən yaxşı uşaq mahnıları" albomuna daxil edilir. Məşhur sovet cizgi filmi "Nu, poqodi!"nin bir bölümünə də salınır.

Bundan sonra Fikrət Əmirov, Ağabacı Rzayeva, Arif Məlikov, Ələkbər Tağıyev, Hacı Xanməmmədov, Ramiz Mustafayev, Tofiq Bakıxanov, Nəriman Məmmədov, Şəfiqə Axundova, Oqtay Rəcəbov kimi görkəmli bəstəkarlar T.Mütəllibovun yaradıcılığına təkrar-təkrar müraciət edirlər. Şairin sözlərinə tanınmış bəstəkar Ə.Tağıyevin bəstələdiyi "Mənim əzizlərim" mahnısı da böyük maraq doğurur:

*Aydan, gündən ucadır*
*Yurdumuzun sorağı.*
*Səndən ilham alıram*
*Azərbaycan torpağı.*

T.Mütəllibov yaradıcılığında həm də Vətənin əsrarəngiz təbiət gözəlliklərinin tərənnümü, Azərbaycan xalqının keçdiyi tarixi yol, əmək adamlarının hünəri, insan və onun mənəvi dünyası kimi mövzular əsas yer tutur.

*Azərbaycan! Yer üzündə*
*Öz qüdrəti, öz səsi var.*
*Qoy Everest inciməsin,*
*Bu dünyanın Azərbaycan*
*Zirvəsi var.*

Xalq şairi Səməd Vurğun T.Mütəllibovun yaradıcılığını yüksək qiymətləndirib, onun Azərbaycan Yazıçılar İttifaqına üzv qəbul olunmasına köməklik göstərib. 1955-ci ildə ittifaqın iclaslarının birində S.Vurğun gündəliklə maraqlanır. Sədr bir-bir müzakirə olunan məsələlər haqda söz açır. Axırda deyir ki, bir xırda məsələ də var. Bir gənc Yazıçılar İttifaqına üzv olmaq istəyir. S.Vurğun kimdir o gənc, deyir! Sədr bildirir ki, Tofiq Mütəllibov. Şair bir daha soruşur: "Cücələrim"i yazanmı? S.Vurğun üzünü iclas iştirakçılarına tutub deyir: "Xahiş edirəm, təklifim səsə qoyulsun. Tofiq Mütəllibov birillik zəmanət – sınaq müddəti olmadan ittifaqın üzvlüyünə qəbul edilsin". Beləliklə, gənc şair ittifaqa üzv olur.

Şair maraqlı pyeslər də qələmə alıb. 1981-ci ildə Azərbaycan Dövlət Kukla Teatrında müəllifin "Meşə nağılı", sonrakı illərdə "Danışan qayalar" pyesləri, Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrında isə "Cücələrim" alleqorik pyesi tamaşaya qoyulur.

T.Mütəllibov 1968-1990-cı illərdə SSRİ Yazıçılar İttifaqı Uşaq və gənclər ədəbiyyatı şurasının, 1970-ci ildə SSRİ-Çexoslovakiya Dostluq Cəmiyyəti Azərbaycan şöbəsi İdarə heyətinin, 1986-cı ildə Azərbaycan Yazıçılar İttifaqı Təftiş Komissiyasının, 1988-ci ildə "Ədəbiyyat və incəsənət" qəzeti redaksiya heyətinin üzvü seçilib.

Azərbaycan uşaq ədəbiyyatının inkişafına töhfələr verən Tofiq Mütəllibov 30 oktyabr 1992-ci ildə vəfat edib.

**Savalan Fərəcov**

# "Aşıq deyişmələri" antologiyası çapdan çıxıb

Azərbaycan Aşıqlar Birliyində (AAB) ərsəyə gətirilmiş daha bir kitab – "Aşıq deyişmələri" adlı antologiya işıq üzü görüb.

Bu barədə məlumat verən AAB-nin katibi, Əməkdar mədəniyyət işçisi Musa Nəbioğlu bildirib ki, antologiya Azərbaycan aşıq ədəbiyyatının tarixində ən fəal və işlək bir sənət axarını – aşıq deyişmələrinin xronoloji mənzərəsini ortaya qoyan ilk sistemli nəşrdir. Topluda orta çağların Yetim Aydın, Aşıq Qərib, Qurbani, Abbas Tufarqanlı, Xəstə Qasım, Aşıq Valeh kimi böyük ustadların və onlardan sonrakı dönəmlərdə yaşayıb fəaliyyət göstərmiş Hüseyn Şəmkirli, Aşıq Ələsgər, Molla Cuma, Aşıq Şenlik, Hüseyn Bozalqanlı, Aşıq Şəmşir, Növrəs İman, Mikayıl Azaflı və digər saz-söz xadimlərinin yaradıcılıq nümunələri yer alıb.

Antologiyanın tərtibçiləri AAB-nin sədri, Əməkdar elm xadimi, professor Məhərrəm Qasımlı, professor Mahmud Allahmanlı, filologiya üzrə fəlsəfə doktoru Altay Məmmədli, elmi redaktoru filologiya üzrə fəlsəfə doktoru Aynur Xəlilovadır.

# Türkiyə Cümhuriyyəti 99 yaşında

## Yeddi əsrlik imperatorluğun süqutundan sonra qurulan Cümhuriyyət bütün Türk dünyası üçün fəxarət və nicat ünvanı idi



əvvəli səh. 1-də

Mustafa Kamal 1920-ci il aprelin 23-də Ankarada xalqın iradəsini təmsil edən Türkiyə Böyük Millət Məclisinin (TBMM) çağırılmasına nail oldu. 1920-ci ilin avqustunda İstanbuldakı hökumət I Dünya müharibəsinin qalibləri (ABŞ, Britaniya, Fransa) tərəfindən təslimçi sülhə – Sevr anlaşmasını imzalamağa məcbur edildi. Sazişə görə, Osmanlı 1914-cü ilə qədər olan ərazilərinin dörddəüçünü itirir, ordu və donanması müttəfiq ölkələr tərəfindən bölüşdürülürdü. Geriyə indiki Türkiyənin haradasa üçdəbiri qalırdı.

Anlaşma xalqda böyük etiraz doğurdu, Mustafa Kamal türk xalqının heç vaxt bu təslimçilik aktına razı olmayacağını bildirdi. Mustafa Kamalın başçılıq etdiyi Qurtuluş savaşı daha da genişləndi. 1921-ci ilin yanvarından başlayaraq qələbələr əldə edən türk ordusu həmin ilin avqustunda Sakarya savaşından zəfərlə çıxdı. 1922-ci ilin avqustunda Mustafa Kamalın komandanlığı altında həyata keçirilən "Böyük Taarruz" ("Böyük Hücum") əməliyyatı ilə Türkiyənin yunan ordusunun işğalı altında olan cənub-qərbi azad edildi.

30 avqust Zəfəri ilə yeni dövlətin quruluşunun da təməli qoyuldu. Türkiyə Sevr anlaşmasının ləğv edilməsi üçün Lozannada yeni beynəlxalq konfransın çağırılmasına nail oldu. 1923-cü ilin iyulunda Lozanna konfransının yekun sənədi Sevr müqaviləsini ləğv etdi və Türkiyənin ərazisini indiki sərhədlər çərçivəsində təsbitlədi. 1923-cü il oktyabrın 2-də türk ordusu sonuncu işğalçı qoşunları – ingilis hərbi gəmilərini İstanbul ətrafından vurub çıxardı.

1923-cü il oktyabrın 29-da Mustafa Kamal TBMM-də çıxış edərək Türkiyə Cümhuriyyətinin yarandığını elan etdi. Parlament Mustafa Kamalı ölkənin ilk prezidenti seçdi, ilk hökumətin qurulması isə ordu komandanlarından İsmət İnönüyə tapşırıldı. 1924-cü ilin aprelində Cümhuriyyətin ilk Konstitusiyası – Anayasa qəbul olundu, Osmanlı dönəminə rəsmən nöqtə (Sultan Vəhidəddin ailəsi ilə ölkəni 1922-ci ildə tərk etmişdi) qoyuldu.

Cümhuriyyətin ilk illəri Türkiyə tarixinin çətin dövrü idi. Yeni dövlət quruluşunu (respublika, dünyəvilik) qəbul etmək istəməyən irticaçı (dinçi) qüvvələr ölkənin müxtəlif yerlərində təxribat və iğtişaşlar törədirdi. Xarici qüvvələrin (xüsusilə Osmanlıdan sonra İraqı ələ keçirmiş ingilislərin) təhriki ilə Türkiyənin cənub-şərq bölgələrində kürd qiyamları və ilk separatçı çıxışlar da bu dövrə təsadüf edir.

Bununla belə, Mustafa Kamal ölkənin bölünməzliyini və möhkəmlənməsini təmin etdi. 1932-ci ildə TBMM-in qərarı ilə Mustafa Kamala Atatürk adı verildi. Ümumilikdə dörd (1923, 1927, 1931, 1935) dəfə prezident seçilmiş Atatürk 1938-ci il noyabrın 10-da vəfat etdi.

Atatürkdən sonra prezident postuna Baş nazir İsmət İnönü keçdi. O, TBMM-də dörd dəfə (1938, 1939, 1943, 1946) prezident vəzifəsinə seçilmişdi. 1950-ci ilədək Türkiyədə bir partiyanın – Atatürkün qurduğu Cümhuriyyət Xalq Partiyasının hakimiyyətdə olduğunu nəzərə alsaq, bu, təbii idi.

I Dünya müharibəsindən fərqli olaraq, II Dünya savaşını kənardan seyr edən və tədrici inkişaf yolu keçən Türkiyə 1940-cı illərin sonunda yeni siyasi dönəmə – real çoxpartiyalı sistemə qədəm qoydu. 1950-ci il parlament seçkilərində hakimiyyətə Adnan Menderesin rəhbərlik etdiyi Demokrat Partiyası gəldi.

Menderesin Baş nazir olduğu 10 ildə Türkiyə sürətli iqtisadi inkişaf və islahatlar dövrünə qədəm qoymuş, geniş özəlləşmə başlamış, Türkiyənin beynəlxalq nüfuzu (1952-ci ildə NATO-ya daxil oldu) artmışdı. Bununla yanaşı, ölkədə islahatçı hökumətə güclü müxalifət (o cümlədən ordu sıralarında) də vardı, hökumət ölkənin sərvətini xarici sərmayəçilərə satmaqda, Cümhuriyyət dəyərlərinə sayqısızlıqda, dini istismar etməkdə ittiham olunurdu.

Nəticədə 1960-cı ilin 27 mayında hərbi çevriliş baş verdi, Baş nazir Menderes, Prezident Cəlal Bayar (1950-1960) başda olmaqla bütün hökumət və siyasi rəhbərlik (200-dən çox şəxs) həbs olundu. Hərbi tribunalın qərarı ilə Menderes və daha iki nazir korrupsiya ittihamı ilə edam edildi.

1961-ci ildə yeni Konstitusiya qəbul edildi, hərbi çevrilişin rəhbərlərindən olmuş Quru Qoşunların komandanı Camal Gursel Türkiyənin 4-cü Prezidenti seçildi. Ondan sonra daha bir general, Baş Qərargah rəisi Cövdət Sunay 5-ci Prezident (1966-1973) oldu. Türkiyənin növbəti Prezidenti də keçmiş hərbçi – istefada olan admiral Fəxri Korutürk (1973-1980) oldu. 60-70-ci illər Türkiyədə daxili siyasi çaxnaşmalar, dinçi, solçu və millətçi qüvvələrin toqquşmaları ilə keçdi. 1974-cü ildə Kipr türklərinə qarşı qırğınlara son qoymaq adaya qoşun yeridən Türkiyə beynəlxalq müstəvidə ciddi haqsız təzyiqlərlə üzləşdi.

1980-ci ildə növbəti böhran yarandı. Parlamentdə yeni prezidenti seçmək mümkün olmadı. Dərinləşən siyasi və iqtisadi böhran, sağ-sol mübarizəsinin küçələrdə silahlı toqquşmalarla müşayiət olunması ölkəni növbəti hərbi çevrilişin eşiyinə gətirdi. 12 sentyabr çevrilişindən sonra hakimiyyət Baş Qərargah rəisi Kənan Evrenin rəhbərliyi altında Milli Təhlükəsizlik Şurasına keçdi. Ölkə iki il hərbi rejim tərəfindən idarə olundu, Türkiyənin Avropa Şurasında üzvlüyü donduruldu. 1982-ci ildə generalitet yeni Konstitusiyanın qəbuluna və dövlət idarəçiliyini mülki hökumətə verməyə razılıq verdi. General Evren Prezident kürsüsünə əyləşdi.

1983-cü ildə keçirilən parlament seçkilərində Turqut Özalın rəhbərlik etdiyi Ana Vətən Partiyası (ANAP) qalib gəldi və o, Baş nazir oldu, 1989-cu ildə isə Prezident seçildi. 1991-ci il parlament seçkilərində Süleyman Dəmirəlin başçılıq etdiyi Doğru Yol Partiyası qələbə çaldı və o, ölkənin yeni Baş naziri, 1993-cü ildə Özalın vəfatından sonra isə ölkənin 9-cu Prezidenti oldu.

1995-ci il seçkilərində dini təmayüllü Rifah Partiyası qalib gəlsə də, onun lideri Nəcməddin Ərbakanın baş nazirliyi ilyarım çəkdi və 1997-ci ilin yayında o, generalitetin təzyiqi ilə istefa verməli oldu. Bu arada Türkiyə müxtəlif koalisiya hökumətləri ilə idarə olunurdu. 1999-cu il seçkilərindən sonra Bülənd Ecevitin başçılıq etdiyi Demokratik Sol Partiya, Dövlət Baxçalının rəhbərlik etdiyi Milliyyətçi Hərəkat Partiyası və ANAP nisbətən uzunmüddətli koalisiya qurdu. 2000-ci ildə koalisiyanın dəstəyi ilə Konstitusiya Məhkəməsinin sədri Əhməd Necdət Sezər Türkiyənin 10-cu Prezidenti seçildi.

2002-ci ildə ölkədə dərinləşən iqtisadi böhran fonunda hökumət koalisiyası dağıldı və Rəcəb Tayyib Ərdoğanın Ədalət və İnkişaf Partiyası (AK Parti) inamlı qələbə çalaraq təkbaşına iqtidara gəldi. 2007-ci ilin iyul seçkilərində AKP yenidən təkbaşına iqtidar oldu. Həmin ilin avqustunda partiyanın namizədi Abdullah Gül TBMM-də Türkiyənin 11-ci Prezidenti seçildi.

2014-cü ilin 10 avqustunda Türkiyədə ilk dəfə Prezident xalq tərəfindən, ümumi səsvermə ilə seçildi. Baş nazir Rəcəb Tayyib Ərdoğan inamlı qələbə qazanaraq ölkənin yeni başçısı oldu. 2017-ci ildə keçirilən referendumla Türkiyənin dövlət idarəçiliyi də qismən dəyişdi. Ölkə parlament-prezident idarəçiliyindən təkbaşqanlıq sisteminə (Prezident üsul-idarəsinə) keçdi, Baş nazir postu ləğv olundu. 2018-ci ildə Prezident seçilən Ərdoğan həm dövlətin, həm də hökumətin başçısı oldu.

Bu müddətdə gerçəkləşən parlament seçkilərindən də AK Parti qalib çıxıb. Hərçənd hakim partiya 2019-cu il bələdiyyə seçkilərində bir sıra böyük şəhərlərdə yerli hakimiyyəti müxalifətə verməli oldu. Türkiyədə növbəti seçkilər (Prezident və parlament) 2023-cü ildə, Cümhuriyyətin 100-cü ilində olacaq...

Son 20 ili Rəcəb Tayyib Ərdoğanın rəhbərliyi altında keçən Türkiyə, axır dövrlərdə sosial-iqtisadi sıxıntıları olsa da, ümumilikdə böyük tarixi yol qət edib. Bu illər geniş islahatlar və inkişafla yanaşı, siyasi böhranlarla da müşayiət olunub. 2016-cı il iyulun 15-də dövlət çevrilişinə cəhdin iqtidar-xalq birliyi ilə dəf edilməsi ölkənin həm daxildən güclənməsinə, həm də regional və beynəlxalq məsələlərdə daha çox söz sahibi olmasına zəmin açdı. Bu günün Türkiyəsi 20 il, hətta 10 il əvvəlin Türkiyəsindən daha güclü, o cümlədən sürətlə inkişaf edən milli hərbi sənayesi ilə daha qüdrətlidir.

Güclü Türkiyə güclü Azərbaycan, güclü Azərbaycan güclü Türkiyə deməkdir. Bunu iki qardaş ölkənin liderləri hər zaman xüsusi vurğulayırlar. Bunun ən bariz ifadəsi 2020-ci ilin 44 günlük Vətən müharibəsində Azərbaycan-Türkiyə birliyi oldu. 2021-ci ilin 15 iyununda imzalanan Şuşa Bəyannaməsi isə bu birliyə tarixdə əbədi qalacaq möhür vurdu.

Prezident İlham Əliyevin həmkarı Rəcəb Tayyib Ərdoğanla bu günlərdə (17 oktyabr) Cəbrayılda olarkən dediyi kimi: "Bu şanlı tarix bizim müştərək tariximizdir. Türkiyə-Azərbaycan birliyi bir daha zəfər çaldı. Bu gün biz bərpa edilən Qarabağda və Zəngəzurda yenə də Türkiyə-Azərbaycan birliyini görürük... Hər yerdə Azərbaycan və Türkiyə bayraqları bir yerdə dalğalanır... Bu birlik əcdadlarımızdan qalan mirasdır, onların vəsiyyətidir və zəmanəmizin tələbidir".

Prezident Ərdoğanın azad yurd yerimizdə can qardaşlarına xitabı da bu yazıya sonluq olsun: "Rəbbimiz birliyimizi, bərabərliyimizi əbədi etsin! Yaşasın Azərbaycan-Türkiyə qardaşlığı!"

**Vüqar Əliyev**

## Xatirə təqvimi — 29 oktyabr – 1 noyabr

### Azərbaycan

**29 oktyabr 1941** – Xalq artisti Ağaxan Əli oğlu Salmanlı (1941 – 29.2.2020) Bakıda anadan olub. Dövlət Gənc Tamaşaçılar Teatrının aktyoru olub. Televiziya tamaşalarında çəkilib. Uşaqlar üçün pyeslərin müəllifidir, bir neçə tamaşaya quruluş verib.

**29 oktyabr 1949** – Tanınmış aktyor Şahin Cəbrayılov (1949 – 5.9.2007) anadan olub. Akademik Milli Dram Teatrında çalışıb. Televiziya tamaşalarında, filmlərdə ("Yol əhvalatı", "Qızıl uçurum") çəkilib.

**29 oktyabr 1993** – Zəngilan rayonunun Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunduğu gün idi. 27 il işğal altında qalan Zəngilan 44 günlük Vətən müharibəsində, 2020-ci il oktyabrın 20-də azad edildi.

**29 oktyabr 2004** – Tanınmış rəssam, animator, kitab illüstratoru Nazim Məmmədov (1934 –2004) vəfat edib.

**30 oktyabr 1880** – Məşhur tarzən, Xalq artisti Qurban Bəxşəli oğlu Pirimov (1880 – 29.8.1965) Şuşa qəzasının Abdal-Gülablı (indiki Ağdam rayonu) kəndində doğulub. Xanəndə Cabbar Qaryağdıoğlu və kamançaçı Saşa Oqanezaşvili ilə birlikdə yaratdığı muğam üçlüyündə 20 ilə yaxın fəaliyyət göstərib. 1920-ci ildən Opera və Balet Teatrının solisti olub.

**30 oktyabr 1907** – Jurnalist, tərcüməçi, Əməkdar mədəniyyət işçisi Adil Ələddin oğlu Əfəndiyev (1907-1973) Bakıda doğulub. Respublika Jurnalistlər Birliyinin ilk sədri olub. Rusca-azərbaycanca üçcildlik lüğətin tərtibçisidir, rus və Avropa yazıçılarının əsərlərini Azərbaycan dilinə tərcümə edib.

**30 oktyabr 1928** – Tanınmış sənətşünas alim, akademik Rasim Səməd oğlu Əfəndiyev (1928 – 13.2.2010) Qazaxda doğulub. "Azərbaycan dekorativ-tətbiqi sənəti", "Azərbaycanın bəzək sənəti", "Azərbaycan daş plastikası" kitabları xarici dillərə tərcümə olunub. AMEA Memarlıq və İncəsənət İnstitutunun direktoru işləyib.

**30 oktyabr 1992** – Əməkdar incəsənət xadimi, şair Tofiq Mütəllim oğlu Mütəllibov (13.4.1929 – 1992) vəfat edib. Uşaqlar üçün çoxsaylı əsərlərin müəllifidir.

**30 oktyabr 2005** – Xalq artisti, müğənni, bəstəkar Məmmədbağır Bağırzadə (21.7.1950 – 2005) vəfat edib. Xalq və bəstəkar mahnılarının mahir ifaçısı, populyar mahnıların ("Kimlərə qaldı dünya?", "Yadıma düşdü") müəllifi olub.

**31 oktyabr 1910** – Əməkdar artist Ağa Əsgər oğlu Məmmədov (1910-1973) Cənubi Azərbaycanın Ərdəbil şəhərində doğulub. Tiflis Azərbaycan Dram, Gəncə Dövlət Dram teatrlarının aktyoru olub.

**31 oktyabr 2012** – Bakıda görkəmli opera müğənnisi, SSRİ Xalq artisti Bülbülün abidəsinin (heykəltəraş – Akif Əsgərov) açılışı keçirilib. Mərasimdə Prezident İlham Əliyev iştirak edib.

**1 noyabr 1923** – Qəzəlxan şair Əliağa Bakir (Əliağa Hacağa oğlu Rzayev; 1923-1998) Bakıda anadan olub.

**1 noyabr 1939** – Azərbaycan SSR Xalq Komissarları Soveti Nizami Gəncəvinin 800 illik yubileyinə hazırlıqla bağlı dahi şairin həyat və yaradıcılığından bəhs edən muzeyin (indiki Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi) yaradılması barədə qərar qəbul edib.

**1 noyabr 1945** – Kinorejissor, ssenarist Nicat Feyzullayev (1945 – 4.5.2015) Bakıda tanınmış rəssamlar Lətif Feyzullayev və Vəcihə Səmədovanın ailəsində anadan olub. "Küçələrə su səpmişəm" bədii və çoxsaylı sənədli filmlər çəkib.

**1 noyabr 1965** – Məşhur xanəndə, Xalq artisti Seyid Şuşinski (Mir Möhsün ağa Seyid İbrahim oğlu; 12.4.1889 – 1965) vəfat edib. 1930-60-cı illərdə Azərbaycan Dövlət Filarmoniyasının solisti olub, pedaqoji fəaliyyət göstərib.

**1 noyabr 2005** – Əməkdar artist Bürcəli Veysəl oğlu Əsgərov (15.2.1933 – 2005) vəfat edib. Akademik Milli Dram Teatrında çalışıb. Filmlərdə, televiziya tamaşalarında çəkilib.

### Dünya

**29 oktyabr 1863** – Beynəlxalq Qırmızı Xaç Komitəsinin (International Committee of the Red Cross - ICRC) yarandığı gündür. İsveçrəli xeyriyyəçi və ictimai xadim Anri Dünan (Jean Henri Dunant; 1828-1910) tərəfindən təsis edilən humanitar təşkilat silahlı münaqişələrdən zərər çəkənlərə yardım göstərir.

**30 oktyabr 1751** – İngilis-irland yazıçısı Riçard Brinsli Şeridan (Richard Brinsley Sheridan; 1751-1816) anadan olub.

**30 oktyabr 1839** - İngilis əsilli Fransa rəssamı, impressionizmin tanınmış nümayəndəsi Alfred Sisley (1839-1899) anadan olub.

**30 oktyabr 1871** – Fransız şairi, yazıçı, filosof Pol Valeri (Paul Valery - Ambroise Paul Toussaint Jules Valery; 1871-1945) anadan olub.

**31 oktyabr 1922** – SSRİ-nin Xalq artisti Anatoli Papanov (1922 - 5.8.1987) anadan olub. Filmləri: "Dirilər və ölülər", "Avtomobildən qorun", "Brilyant əl", "12 stul" və s.

**31 oktyabr 1993** – Dünya şöhrətli italyan kinorejissoru Federiko Fellini (Federico Fellini; 20.1.1920 – 1993) vəfat edib. Beş dəfə "Oskar" mükafatına (o cümlədən fəxri "Oskar") layiq görülüb. Filmləri: "Yol", "Kabiriya gecələri", "Şirin həyat", "Səkkiz yarım" və s.

**1 noyabr 1636** – Fransız şairi, ədəbiyyatşünas, klassisizmin nəzəriyyəçisi Nikola Bualo (Nicolas Boileau-Despreaux; 1636 – 13.3.1711) anadan olub.

**1 noyabr 1781** – Alman rəssamı Yozef Karl Ştiler (Joseph Karl Stieler; 1781-1854) anadan olub.

**Hazırladı: V.Orxan**

# Atabəylər dövləti ilə bağlı tarixi serial çəkiləcək

Azərbaycanda ilk dəfə çoxseriyalı tarixi bədii televiziya filmi çəkiləcək. "Azərbaycan Televiziya və Radio Verilişləri" QSC-dən verilən məlumata görə, AzTV-də yayımlanacaq serial iki mövsümdən ibarət olacaq. İlk mövsüm "Atabəylər: Şəmsəddin Eldəniz" adlanır.

Məlumatda bildirilir ki, Mədəniyyət Nazirliyinin tərəfdaşlığı ilə çəkiləcək serialın ilk mövsümünün 24 bölümdən ibarət olması nəzərdə tutulub.

Film-layihədə Azərbaycan Atabəylər dövlətinin qurucusu Şəmsəddin Eldəniz, Möminə xatın, Məhəmməd Cahan Pəhləvan, Qızıl Arslan, Nizami Gəncəvi, Nəsrəddin Tusi, Memar Əcəmi Naxçıvani, Sultan Səncər, Vəzir Kəmaülmülk və başqa şəxsiyyətlərin obrazları təqdim olunacaq.

Serialda tariximizin ən şərəfli dövrlərindən biri olan XII-XIII əsrlərə müraciət edilməklə Azərbaycan Atabəylərinin qurduğu dövlətin nəhəng sərhədlərinə diqqət çəkiləcək, həmin dövrün hərbi-siyasi müstəvisindən başqa, həm də elmi və mədəni sahələrini təmsil edən dühalarının obrazı yaradılacaq.

Qonşu dövlətlərlə münasibət faktoru, tarixi faktların dəqiqliyi və etibarlı mənbələrin üzə çıxarılması üçün AMEA-nın Tarix İnstitutunda mütəxəssislərdən ibarət işçi qrup yaradılıb.




Çoxseriyalı televiziya filminin çəkilişi Türkiyədə və ölkəmizdə fəaliyyət göstərən peşəkar kino işçilərindən formalaşdırılan yeni prodakşn "Şahdağfilm"ə həvalə olunub. "Şahdağfilm"in yaradıcı heyəti treninqlər üçün bir neçə dəfə qardaş ölkədə olub, "Bozdağ Film" və "Akli Film" kimi tarixi filmlər istehsal edən məşhur prodakşnlarda təcrübə mübadiləsi aparıblar. Türkiyədən olan mütəxəssislərin bu istiqamətdə geniş təcrübəsi nəzərə alınaraq çoxseriyalı filmin çəkilişlərində onlarla müştərək çalışmaq üçün ilkin razılığa gəlinib.

Bundan başqa, Orta əsrlərin dil üslubu, ədəbi mühiti, sosial-mədəni həyatı barədə ciddi araşdırmalar aparılır. Ssenari qrupu tarixi və ədəbi mənbələrə, folklor qaynaqlarına müraciət edib. Nizami Gəncəvinin "Xəmsə"si həmin dövrlə bağlı olduğundan ssenarinin əsas mənbələrindəndir. Eyni zamanda Məmməd Səid Ordubadinin "Qılınc və qələm" romanı, İsa Muğannanın "Gurün" romanı, Nəriman Həsənzadənin "Atabəylər" poeması, Yunus Oğuzun "Şəmsəddin Eldəniz" romanı həmin dövrü əhatə edir.

Ssenaridə haşhaşilər və onların sui-qəsdləri, xristian missionerlərin fitnələri, döyüş səhnələri, saray intriqaları, müdhiş sevgi hekayələri, dini-siyasi ziddiyyətlər və digər məqamlar yer alıb.

Serialın çəkilişlərinə hazırlıq çərçivəsində "Azərbaycan Televiziya və Radio Verilişləri" QSC-də görüş keçirilib. Görüşdə QSC-nin sədri Rövşən Məmmədov, serialın layihə rəhbəri Sərvər Bayramov, AMEA Tarix İnstitutunun baş direktoru Kərim Şükürov, "Şahdağfilm"in həmtəsisçiləri Əlibala Məhərrəmzadə və Azərbaycanda Amerika Ticarət Palatasının vitse-prezidenti İlqar Mehdi, ssenari qrupunun üzvləri Tufan Bora, millət vəkili Hikmət Babaoğlu, yazıçı Varis Yolçuyev və digərləri iştirak ediblər.

QSC-nin sədri Rövşən Məmmədov Azərbaycanın ilk tarixi çoxseriyalı bədii televiziya filmində məhz Atabəylər dövrünə müraciət edilməsinin təsadüfi olmadığını vurğulayıb: "XII əsrdə Şəmsəddin Eldənizin başçılığı altında Azərbaycan coğrafiyasında əldə edilən hərbi-siyasi uğurların ekrana daşınması, regional kontekstdə geniş tamaşaçı auditoriyasına çatdırılması müasir Azərbaycan dövlətinin Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə Vətən müharibəsində qazandığı qalibiyyət fonunda daha aktualdır".

Film-layihənin ssenari qrupunda yer alan millət vəkili Hikmət Babaoğlu da mövzunun aktuallığına diqqət çəkib: "Azərbaycan tarixini kino estetikası və ekran dramaturgiyası ilə ortaq türk tamaşaçısına təqdim etmək zəruridir. Bu baxımdan XII-XIII əsrlərdə Azərbaycan coğrafiyasında öz tarixi ənənəsi ilə seçilən Azərbaycan Atabəylər dövlətinin tarixi bu sahədə başlanğıc üçün uğurlu hesab oluna bilər".

Layihə rəhbəri Sərvər Bayramov bildirib ki, növbəti mövsümdə daha 24 bölüm "Turan yoluna doğan günəş" adı altında təqdim olunacaq: "Azərbaycançılıq ideologiyası, dövlətçilik anlayışının daha da gücləndirilməsi üçün müasir çağırışların film-layihədə yer alması, müxtəlif sloqanlar və həştəqlər vasitəsilə şüuraltı mesajların ötürülməsi əsas hədəflərdəndir".

"Şahdağfilm"in həmtəsisçiləri hazırlıq prosesi haqqında məlumat verib, bu sahədə mövcud təcrübəyə diqqət çəkiblər. Qeyd olunub ki, həmin dövrdə İslam dininin dominantlığı və müasir Azərbaycan dövlətinin dünyəvi modeli, multikultural, tolerant mahiyyəti, ideoloji siyasəti nəzərə alınaraq uzlaşdırılması üçün hazırlıq prosesində Azərbaycan İlahiyyat İnstitutu ilə də əməkdaşlıq edilir.

Sonra ssenari qrupunun üzvləri Tufan Bora və Varis Yolçuyev görülən işlər barədə məlumat veriblər.

# Bursada II Dədə Qorqud Türk Dünyası Film Festivalı keçiriləcək

## Gələn il festivalı Şuşa şəhəri qəbul edəcək

1-5 noyabr tarixində Türkiyənin Bursa şəhərində 2-ci Dədə Qorqud Türk Dünyası Film Festivalı keçiriləcək. İlk dəfə ötən il İstanbulda gerçəkləşən festivala bu ildən etibarən "Türk Dünyasının Mədəniyyət Paytaxtı" olan şəhərlərdə keçirilməsi qərara alınıb. 2023-cü ildə bu statusla Dədə Qorqud Türk Dünyası Film Festivalını Şuşa şəhəri qəbul edəcək.

Festivala hazırlıqla bağlı məlumat verən Türkiyənin mədəniyyət və turizm nazirinin müavini Ahmet Misbah Demircan tədbirin türk respublikaları və topluмlarından peşəkar kino və mədəniyyət xadimlərini bir araya gətirəcəyini deyib. Bildirib ki, festival Bursa Böyükşəhər Bələdiyyəsi də daxil olmaqla, bir sıra təşkilatların dəstəyi ilə Türkiyənin Mədəniyyət və Turizm Nazirliyinin himayəsi altında təşkil ediləcək.

"Festival çərçivəsində ortaq film istehsalı üçün zəmin yaratmağı, müsabiqə çərçivəsində yeni filmlərin mükafatlandırılmasını və türk respublikalarının nazirlərini bir araya gətirməyi qarşımıza məqsəd qoymuşuq. Bu il "Türk Dünyasının Mədəniyyət Paytaxtı" Bursada təşkil etdiyimiz festivalı gələn il Azərbaycanın Şuşa şəhərində keçirəcəyik", - deyə nazir müavini deyib.

Qeyd edək ki, festivala Türkiyə, Azərbaycan, Özbəkistan, Qırğızıstan, Qazaxıstan və Türkmənistanın kino mütəxəssisləri qatılacaq. Tədbirdə Türk dünyasının müxtəlif yerlərindən, o cümlədən Rusiya Federasiyasının respublikalarından, Balkanlardan iştirakçılar da olacaq.

# Maqomayevin xatirəsi Moskvada da anılıb

Dünya şöhrətli müğənni və bəstəkar, Azərbaycanın və SSRİ-nin Xalq artisti Müslüm Maqomayevin (1942-2008) xatirəsi Moskvada da anılıb. Oktyabrın 25-də, Müslüm Maqomayevin vəfatının ildönümündə onun ölməz sənətinin pərəstişkarları Rusiya paytaxtında ucaldılmış abidəsi önündə toplaşıblar.






Anım mərasimində Müslüm Maqomayevin xanımı, SSRİ Xalq artisti Tamara Sinyavskaya, Heydər Əliyev Fondunun Rusiya nümayəndəliyinin əməkdaşları, Rusiya Azərbaycanlı Gənclər Birliyinin fəalları iştirak ediblər. Abidənin önünə gül dəstələri qoyulub. Dahi müğənninin repertuarından mahnılar səslənib.

Xatırladaq ki, Müslüm Maqomayevin 80 illiyi münasibətlə oktyabrın 25-də Mədəniyyət Nazirliyi və Heydər Əliyev Sarayının təşkilatçılığı ilə "Əziz Müslüm" adlı yubiley gecəsi keçirilib.

Müslüm Maqomayevin Moskvadakı heykəli 2011-ci ildə ucaldılıb. Abidənin müəllifləri heykəltəraş, Rusiyanın Xalq rəssamı Aleksandr Rukavişnikov və Rusiyanın Əməkdar memarı İqor Voskresenskidir.

Heykəl Voznesenski və Yeliseyev döngələrinin kəsişdiyi yerdəki bağda, böyük musiqiçinin yaşadığı evin yaxınlığında qoyulub. Abidə meydançası royal formasında cilalanmış qranitdən hazırlanıb. Royalın önündə Maqomayevin ifa etdiyi məşhur mahnılardan biri olan "Sən mənim melodiyamsan" mahnısının sözləri və notları həkk edilib. Müğənninin tunc heykəli qranit pyedestalda qoyulub. Hündürlüyü 4,5 metr olan abidə sənətkarın yaxın dostu, "Krokus" şirkətinin prezidenti, həmvətənimiz Araz Ağalarovun təsis etdiyi Müslüm Maqomayevin Mədəni-Musiqi İrsi Fondunun dəstəyi ilə hazırlanıb və Moskvanın o vaxtkı meri Yuri Lujkovun müvafiq sərəncamına əsasən ucaldılıb.

# AYSF Avropa Yaradıcı Biznes Şəbəkəsinə üzv qəbul edilib

Azərbaycan Yaradıcı Sənayelər Federasiyasının (AYSF) qabaqcıl təcrübələrin öyrənilməsi və beynəlxalq əməkdaşlığın gücləndirilməsi istiqamətində fəaliyyəti davam edir.



Avropa İttifaqı tərəfindən maliyyələşdirilən, Höte İnstitutu tərəfindən icra olunan #EU4Culture layihəsi çərçivəsində fərdi mobillik proqramının ilk mərhələsinin qalibi kimi AYSF İdarə Heyətinin sədr müavini Telman Məlikzadə Çexiyanın Kreativ Praqa (Kreativní Praha) təşkilatının dəvəti ilə bir həftə ərzində bu ölkədə təcrübə və öyrənmə səfərində olub.

Federasiyadan bildirilib ki, səfər proqramı çərçivəsində Çexiyanın Mədəniyyət Nazirliyində, UNESCO-nun "Yaradıcı şəhərlər şəbəkəsi"nə daxil olan Praqada – "Praqa ədəbiyyat şəhəri" layihə əlaqələndirmə ofisində, Praqa İnnovasiyalar Platformasında, Çarls Universitetinin Kampus Hybernska kreativ habında, Art&Digital Lab H40 yaradıcılıq inkubator mərkəzində, Ostrava şəhərinin kreativ klasteri olan Dolni Vitkovica məkanında və digər yerlərdə görüşlər keçirilib.

T.Məlikzadə Brno şəhərində Kreativ günlər festivalının açılışına da qatılaraq, Kumst kreativ habın təşkilatçılığı ilə keçirilən şəbəkələşmə görüşündə ölkəmizdə yaradıcı sənayelərin inkişafı istiqamətində atılan addımlar, #EU4Culture layihəsinin bu istiqamətdə açdığı imkanlar, yerli şəhərlər üçün mədəni inkişaf strategiyalarının inkişafı üzrə müsabiqənin qalibi olmuş "Lənkəran mədəni inkişaf strategiyası" layihəsi haqqında çıxış edib.

Avropa Yaradıcı Biznes Şəbəkəsinin direktoru Gerin Trautenberger ilə görüşdə AYSF-nin Avropa Yaradıcı Biznes Şəbəkəsinə (ECBN) üzvlüyü müzakirə edilib. Nəticə olaraq, Azərbaycan Yaradıcı Sənayelər Federasiyası ECBN-yə üzv qəbul olunub.

AYSF ölkəmizdə mədəniyyət, incəsənət və yaradıcılıq sahəsində fəaliyyət göstərən menecerləri və yaradıcı gəncləri #EU4Culture proqramının növbəti mərhələlərində fəal olmağa, öyrənmə və təcrübə qazanma imkanlarından yararlanmağa dəvət edir.

# Ölkəmiz Asiya-Sakit Okean Turizm Assosiasiyasının sammitində təmsil olunur

Azərbaycan Turizm Bürosu Asiya-Sakit Okean Turizm Assosiasiyasının (PATA) illik sammitində iştirak edir.

Dövlət Turizm Agentliyindən (DTA) bildirilib ki, Birləşmiş Ərəb Əmirliklərinin Ras-əl-Xaym şəhərində keçirilən sammit "Dünya və dayanıqlı turizm" mövzusuna həsr olunub. Sammitin əsas məqsədi turizm üzrə dünya liderləri ilə pandemiyadan sonrakı dövrdə dayanıqlı turizm istiqamətində atılan real addımlara dair öhdəlikləri müzakirə etməkdir.

Azərbaycan Turizm Bürosunun baş icraçı direktoru Florian Zenqstşmid "Dayanıqlı səyahət istiqamətində turizm strategiyaları: turizmə yeni baxış" adlı sessiyada panel spikeri qismində iştirak edib. O, çıxışı zamanı dayanıqlı turizmin formalaşdırılması istiqamətində son illər ölkədə inkişaf etdirilən quş müşahidəçiliyi, haykinq, "Slou Fud", mədəni irs marşrutları və s. kimi turizm məhsulları və layihələr haqqında məlumat verib. O, həmçinin turizmin inkişafında ölkənin sahib olduğu mədəni və tarixi irsin qorunmasının əhəmiyyətini vurğulayıb.

Sammit çərçivəsində keçirilən sərgidə Azərbaycanın turizm potensialını əks etdirən broşürlər, milli şirniyyatlarımızdan nümunələr ziyarətçilərə təqdim olunub.




Tədbir Asiya-Sakit Okean, Şimali Amerika, Avropa və Yaxın Şərq regionlarının turizm liderlərini bir araya gətirir. Azərbaycan 2019-cu ildən PATA-nın üzvüdür.

# UNESCO Ukraynadakı dağıntıları peykdən izləyir



UNESCO Rusiyanın Ukraynada apardığı hərbi əməliyyat zamanı maddi mədəniyyət nümunələrinin dağıdılmasını izləmək üçün peyk təsvirlərindən istifadə edir.

Təşkilatdan bildirilib ki, bu məlumatlar yaxın günlərdə ictimaiyyət üçün açıq olacaq.

Məlumatda qeyd olunur ki, Rusiyanın Ukraynada hərbi əməliyyata başladığı 24 fevraldan bəri 207 mədəniyyət obyekti zərər görüb. Onlardan 88-i kilsə, 15-i muzey, 76-sı tarixi əhəmiyyətli bina, 18-i heykəl, 10-u kitabxanadır.

# İsrailli xoreoqraf YARAT-da ustad dərsləri keçəcək

Noyabrın 7-də YARAT Müasir İncəsənət Mərkəzində dünyaca məşhur xoreoqraf və performer Şahar Binyamini tərəfindən ustad dərsləri keçiriləcək.

YARAT-dan bildirilib ki, noyabrın 12-də davam edəcək müasir rəqs üzrə ustad dərslərini Şahar Binyamini ilə bərabər onun assistenti Cozef Kudra keçəcək.

1988-ci ildə İsrailin Lod şəhərində doğulan Şahar Binyamini 2006-2013-cü illərdə "Batsheva Dance Company" kollektivinin tərkibində çıxışlar edib. O, beynəlxalq səviyyəli quruluşların yaradıcısı kimi tanınıb.

"Qaqa" adlı unikal rəqs sistemi, dili və pedaqogikasının yaradıcısı və müəllimi Ohad Naharinin assistenti kimi Şahar Binyamini bütün dünya üzrə rəqs kollektivləri ilə işləyir. 2013-cü ildə o, Veysman Elm İnstitutunun professoru Atan Qross ilə birgə, rəqqaslar, elm adamları və xoreoqraflardan ibarət "TNUDA" elmi-tədqiqat qrupunu təsis edib. Şahar Binyamini İsrail Mədəniyyət Nazirliyi tərəfindən 2021-ci ilin ən uğurlu xoreoqrafı mükafatına layiq görülüb.

Xronoqraf

# Tarixdə bu gün

## Zamanın səhifələrində qalan olaylar, faktlar...

### 136 il əvvəl...



**28 oktyabr 1886-cı ildə** Nyu-Yorkda "Azadlıq" heykəlinin rəsmi açılışı olub. 46 metr hündürlüyündə və ümumi çəkisi 225 ton olan monument Fransa xalqının Birləşmiş Ştatlara hədiyyəsi idi və ölkə əhalisinin ianəsi hesabına (o vaxtın pulu ilə 250 min dollar) başa gəlmişdi. Fransızlar bununla 1789-cu il Fransa inqilabına dəstəyinə görə ABŞ-a təşəkkür etdilər. Memarı F.Bartold olan qadın heykəli Amerika azadlığının simvolu sayılır. Onun sağ əlində məşəl, sol əlində isə ABŞ-ın "Müstəqillik bəyannaməsi" yazılmış lövhə var.

### 104 il əvvəl...

**29 oktyabr 1918-ci ildə** Rusiya fəhlə və kəndli gənclərinin 1-ci qurultayı keçirilib. Qurultayda Rusiya Kommunist Gənclər İttifaqı – komsomol yaradılıb. 1924-cü ildə Leninin vəfatından sonra ittifaqa onun adı verildi, 1926-cı ildən ittifaq SSRİ miqyaslı təşkilat oldu. Ümumittifaq Lenin Kommunist Gənclər İttifaqı sovet cəmiyyətinin aparıcı qüvvələrindən idi.

**30 oktyabr 1918-ci ildə** I Dünya müharibəsində məğlub duruma düşən Osmanlı dövləti müharibənin qalibi sayılan Antanta ölkələri (Britaniya, Fransa, ABŞ) ilə Mudros sülh sazişi imzalayaraq qoşunlarını Azərbaycandan və bütün Cənubi Qafqazdan çıxarmaq barədə öhdəlik götürüb. Bakını tərk edən türk qoşunlarının yerinə şəhərə ingilis qüvvələri daxil olmalı idi.

### 99 il əvvəl...

**29 oktyabr 1923-cü ildə** Türkiyə Cümhuriyyətinin yarandığı elan edilib. Türkiyə Böyük Millət Məclisində keçirilən mərasimdə Mustafa Kamal Atatürk ölkənin ilk prezidenti seçilib.

### 79 il əvvəl...

**28 oktyabr 1943-cü ildə** SSRİ Ali Sovetinin Rəyasət Heyəti Böyük Vətən müharibəsində "faşistlərə yardım etmiş xalqlar barəsində" qərar qəbul edib. Qərarda Şimali Qafqaz, Volqaboyu və Krımın əksər xalqları "qara siyahıya" salınıb. 1944-cü ilin iyununadək ümumilikdə 400 min çeçen, 140 min kalmık, 200 min Krım tatarı, 100 min inquş, 80 min qaraçay, 40 min balkar Mərkəzi Asiya və Sibirə deportasiya edilib. Bu xalqların reabilitasiyası barədə qərar Stalinin ölümündən (1953) sonra verildi.

### 70 il əvvəl...

**30 oktyabr 1952-ci ildə** Böyük Britaniya ilk nüvə bombasını sınaqdan çıxarıb. ABŞ və SSRİ-dən sonra Britaniya "nüvə klubu"nun üçüncü üzvü oldu. Bu işdə amerikalı mütəxəssislər britaniyalı həmkarlarına kömək göstərmişdilər. Daha sonra bu sıraya Fransa (1960) və Çin (1964) qoşuldu.

### 30 il əvvəl...



**29-31 oktyabr 1992-ci ildə** Ankarada Türkiyə, Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Türkmənistan, Özbəkistan dövlət başçılarının ilk zirvə toplantısı keçirilib. Türkiyə Prezidenti Turqut Özalın təşəbbüsü ilə gerçəkləşən sammitdə türkdilli ölkələrin əməkdaşlıq platforması qurulub. 2009-cu ildə (Naxçıvan sammiti) Türkdilli Ölkələrin Əməkdaşlıq Şurasının yaradılması barədə qərar qəbul edilib. Türk Şurası bir il sonra İstanbul sammitində rəsmən təsis olunub. 2021-ci ildə Türk Dövlətləri Təşkilatı adlandırılıb.

### 29 il əvvəl...

**27-29 oktyabr 1993-cü ildə** Ermənistan silahlı qüvvələrinin genişmiqyaslı hücumu nəticəsində Füzuli rayonunun Horadiz qəsəbəsi və Arazboyu kəndləri, Cəbrayıl rayonunun Arazboyu kəndləri və Zəngilan rayonu işğal olunub. 27 oktyabrda Horadizi ələ keçirən ermənilər Bakı-Mincivan avtomobil və dəmir yollarını kəsiblər. Həmin gün Azərbaycan Prezidenti Heydər Əliyevin dəvəti ilə Bakıya səfərə gələn İran Prezidenti Əli Əkbər Haşimi-Rəfsəncani mühasirədən çıxa bilməyən əhalinin Araz çayından İrana keçməsinə razılıq verib. Zəngilan Azərbaycanın Ermənistan tərəfindən işğal edilən axırıncı rayonu oldu. 27 il sürən işğala 2020-ci ilin Vətən müharibəsində son qoyuldu.

### 27 il əvvəl...

**28 oktyabr 1995-ci ildə** Bakı metrosunda dəhşətli qəza baş verib. "Nərimanov" və "Ulduz" stansiyaları arasında sərnişin qatarında baş vermiş yanğın nəticəsində 300-dək insan həlak olub. 400-dən çox insan müxtəlif dərəcəli yanıq xəsarətləri alıb. Bu, dünya tarixində ən böyük metro qəzası idi. Hadisədə terror əməli aşkarlanmadı. Tələfatın böyük olması qatarın tuneldə alışması və xilasetmə əməliyyatının yetərsizliyi ilə bağlı idi.

**Hazırladı: V.Orxan**

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri
MƏDƏNİYYƏT
Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79 (müxbirlər)
530-34-38 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279. **İndeks:** 0187. **Qiyməti:** 60 qəpik

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib,
"Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 5072. **Sifariş:** 3121
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.

**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944

MADANIYYAT QAZETI REDAKSIYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641